AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

4 MAY 2018-ci il CÜMƏ № 99 (6132) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Ağstafa rayonunun Kolayır-Düzqışlaq-Mollacəfərli-Xılxına-Qarahəsənli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Dörd min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Kolayır-Düzqışlaq-Mollacəfərli-Xılxına-Qarahəsənli avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,0 (üç) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 3 may 2018-ci il.**

## "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 12 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 12 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, N 11, maddə 968; 2009, N 2, maddə 68; 2017, N 8, maddə 1521) aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 3-cü hissədən ", sərhəddə həmin mallar üzərində baytarlıq, fitosanitar, sanitariya nəzarətini" sözləri çıxarılsın;

*1.2.* 4.2-ci bənddə "müvafiq ərazi dövlət baytarlıq müfəttişinə" sözləri "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin müvafiq regional bölməsinə" sözləri ilə əvəz edilsin;

*1.3.* 6-cı hissədə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin yanında Dövlət Baytarlıq və Dövlət Fitosanitar Nəzarəti xidmətləri" sözləri "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi" sözləri ilə əvəz edilsin.

**2.** Bu Fərman 2018-ci il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 3 may 2018-ci il.**

*Akkan Suver:*

# Bakı şəhəri inkişafına görə Qafqazın Parisi adını qazanıb

**Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suverin "KobiEfor" elektron qəzetində "Yenidən Azərbaycan Prezidenti seçilən İlham Əliyev ilk səfərini Türkiyəyə etdi" sərlövhəli analitik məqaləsi yayılıb.**




Məqalədə dövlətimizin başçısı İlham Əliyevin prezident seçkilərində qazandığı möhtəşəm qələbə, bu siyasi zəfəri gerçəkləşdirən səbəblər, Azərbaycanın keçdiyi sosial-iqtisadi inkişaf yolu və s. barədə türkdilli oxuculara geniş məlumat verilir. Azərbaycanın müstəqil siyasət yürüdən, sülhsevər və çoxistiqamətli inkişaf yolunda olan dövlət olduğu vurğulanır. Bildirilir ki, Bakı şəhəri inkişafına görə Qafqazın Parisi adını qazanıb. Ölkənin bütün bölgələri sürətlə inkişaf edir.

Azərbaycanın həyata keçirdiyi beynəlxalq əhəmiyyətli iqtisadi layihələrdən bəhs edən müəllif dövlətimizin başçısının prezidentliyinin yeni dövründə ilk rəsmi səfərini qardaş Türkiyəyə etməsinin artıq bur ənənəyə çevrildiyini vurğulayır.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

"Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 3, maddə 175; 2000, N 8 (III kitab), maddə 615; 2001, N 10, maddə 640, N 12, maddələr 754, 755; 2003, N 10, maddələr 546, 568, 571, 585; 2004, N 12, maddə 1005; 2005, N 2, maddə 69, N 3, maddə 170, N 7, maddə 592, N 8, maddə 720, N 12, maddələr 1104, 1112; 2006, N 9, maddə 743; 2007, N 3, maddə 234, N 8, maddə 766; 2008, N 6, maddə 498, N 9, maddə 798, N 11, maddə 969; 2009, N 2, maddə 70, N 4, maddə 226, N 10, maddələr 776, 779; 2010, N 4, maddə 296, N 5, maddə 389; 2013, N 9, maddə 1056; 2014, N 4, maddə 364, N 5, maddə 477, N 7, maddə 805, N 9, maddə 1027; 2016, N 11, maddə 1817; 2017, N 2, maddə 177, N 8, maddə 1521) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nın 14.9-cu bəndində "Vergilər Nazirliyinə," sözlərindən sonra "Qida Təhlükəsizliyi Agentliyinə," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 3 may 2018-ci il.**

## "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 25 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 25 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 2, maddə 63; 2009, N 4, maddə 226) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi həyata keçirir.".

**2.** Bu Fərman 2018-ci il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 3 may 2018-ci il.**

# SƏMİMİ TƏBRİKLƏR

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi İndoneziya dövləti və xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edir, ən səmimi salamlarımı çatdırıram.

Cənab Prezident, Azərbaycan xalqının böyük əksəriyyətinin Sizə yenidən etimad göstərməsi liderliyinizə inamın, vətəndaşlarınızın firavan həyatı naminə gördüyünüz böyük işlərə qiymətin bariz göstəricisidir.

Fürsətdən istifadə edərək, icazə verin, yeni prezidentliyiniz müddətində Azərbaycan və İndoneziya arasında sıx əlaqələrin ölkələrimizin inkişafı və rifahı naminə daha da möhkəmlənəcəyinə səmimi ümidlərimi ifadə edim.

Zati-aliləri, Sizə ali dövləti fəaliyyətinizdə uğurlar diləyir, ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Coko Vidodo**
**İndoneziya Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik etməkdən böyük şərəf və məmnunluq hissi keçirirəm.

Ölkəmizdə baş verən münaqişənin başa çatması istiqamətində nümayiş etdirdiyiniz mövqe, xüsusilə də Kolumbiyada nar bağlarının salınması ilə bağlı layihəyə göstərdiyiniz dəstək, yüksək səviyyəli qarşılıqlı səfərlər və görüşlər, hər iki ölkədə diplomatik nümayəndəliklərin açılması, qarşılıqlı maraqlara xidmət edən sazişlərin imzalanması sayəsində son 8 il ərzində ölkələrimiz arasındakı əlaqələr daha da inkişaf etmişdir.

Hər iki ölkə arasında mədəniyyət, ticarət, investisiya sahələrində əməkdaşlığa təkan vermək üçün imkanların daha genişləndirilməsinə Kolumbiyanın hər zaman hazır olduğunu bir daha vurğulamaq istəyirəm.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə ən dərin ehtiramımı bildirirəm.

*Hörmətlə,*

**Xuan Manuel Santos**
**Kolumbiya Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Dost Azərbaycan Respublikasında keçirilmiş son prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi Küveyt Dövləti Millət Məclisinin üzvləri adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, ölkənizin inkişaf və tərəqqisi naminə bu ali missiyanızda Sizə uğurlar diləyirəm.

Ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələrinin hazırkı səviyyəsindən məmnunluğumu ifadə edirəm. Zati-alinizin və Küveyt Dövləti Əmirinin ölkələrimizi bir-birinə bağlayan sıx və tarixi əlaqələri inkişaf etdirmək, dost xalqlarımızın mənafeyinə xidmət edən birgə əməkdaşlığımızı möhkəmləndirmək və daha da irəliyə aparmaq istiqamətində göstərdiyiniz qətiyyəti yüksək dəyərləndirirəm.

Zati-aliləri, xahiş edirəm, ən dərin ehtiramımı qəbul edin.

*Hörmətlə,*

**Mərzuq Əl-Ğanim**
**Küveyt Dövləti Millət Məclisinin sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Əziz cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizə və Azərbaycan xalqına bununla əlaqədar səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Bu qələbə Sizin uzun illər ərzində həyata keçirdiyiniz siyasətə vətəndaşlarınızın ifadə etdiyi minnətdarlığın təcəssümüdür. Sizə möhkəm cansağlığı, ölkənizə və xalqınıza tərəqqi, rifah, əmin-amanlıq arzulayıram.

Bu il mayın 15-16-da Bakıya növbəti səfərim zamanı Sizinlə görüşməkdən məmnunluq duyardım. Yenidən gözəl ölkənizə səfər etməyi səbirsizliklə gözləyirəm.

*Dərin hörmət və səmimiyyətlə,*

**Rene Van der Linden**
**Niderland Krallığı Senatının sabiq sədri,**
**Avropa Şurası Parlament Assambleyasının fəxri sədri,**
**Niderland-Azərbaycan Dostluq Qrupunun sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Bilirəm ki, Siz də dahi atanız Heydər Əliyev kimi hər zaman öz xalqınızın mədəniyyətini və incəsənətini yüksək dəyərləndirir və dəstəkləyirsiniz. İnanıram ki, bənzərsiz və nadir Azərbaycan mədəniyyəti Sizin rəhbərliyiniz altında bundan sonra daha da inkişaf edəcək və yüksək zirvələr fəth edəcək.

Mən fəxr edirəm ki, dünyaya göz açdığım, boya-başa çatdığım, ailə qurduğum və çox yüksək keyfiyyətli təhsil aldığım sevimli Azərbaycana məhz Siz rəhbərlik edirsiniz.

Sizə və Mehriban xanıma cansağlığı, səadət, doğma Vətəninizin tərəqqisi yolunda böyük uğurlar diləyirəm.

*Dərin hörmət və ehtiramla,*

**Murad Kajlayev**
**"Dostluq" ordenli bəstəkar və dirijor,**
**SSRİ Xalq Artisti, Dağıstanın Xalq Artisti,**
**professor, Rusiya Təbiyyat Elmləri Akademiyasının akademiki**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti kimi öz adımdan və bütün futbol ictimaiyyəti adından təbrik edirəm.

İnanıram ki, son illərdə Azərbaycanın sabitliyinə və iqtisadi inkişafına verdiyiniz mühüm töhfələr, idarəçilik qabiliyyətiniz və yüksək insani keyfiyyətləriniz Azərbaycan Respublikasının Prezidenti kimi qarşınızda duran vəzifələrin həllində Sizə kömək edəcək və ölkənizin sabit inkişafına müsbət təsir göstərməkdə davam edəcək.

Fürsətdən istifadə edərək, həmçinin ölkənizdə futbolun geniş yayılmasını təmin etmək, eləcə də futbolun müxtəlif mədəni və ictimai maneələrin aradan qaldırılmasında əhəmiyyətini nümayiş etdirmək və bu idman növünü hamı üçün əlçatan etmək istiqamətindəki səylərinizə və dəstəyinizə görə Sizə səmimi təşəkkürümü bildirmək istəyirəm.

Sizə ali dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm. Ən qısa zamanda yenidən görüşüb Sizi şəxsən təbrik etməyi arzulayıram.

*Hörmətlə,*

**Canni İnfantino**
**Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti**

*Fərhad ABDULLAYEV:*

# Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır



**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun və Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının insan hüquq və azadlıqlarının müdafiəsinə dair birgə keçirdiyi konfrans artıq ənənəvi xarakter daşıyır. Hər il ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümü ərəfəsində biz hüquqi konfransı keçiririk.**

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev deyib.

Fərhad Abdullayev qeyd edib ki, konfransda müasir hüququn bütün aktual məsələləri müzakirə olunur. Bu konfransın məhz ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümü ilə bağlı keçirilməsi təsadüfi deyil. Çünki müasir Azərbaycanın hüquq sistemini, demokratik, hüquqi dövlət quruculuğunu ulu öndər Heydər Əliyevin fəaliyyətindən, onun müəyyən etdiyi istiqamətlərdən, xalqımız qarşısındakı xidmətlərindən ayrı təsəvvür etmək mümkün deyil. Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu prosesi ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması istiqamətində mühüm işlər görülüb, islahatlar həyata keçirilib. Bu gün bu işlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

AZƏRTAC

# Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin fəaliyyəti genişləndirilib

**Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin tərkibində ictimai-siyasi işin təşkili sektoru yaradılıb.**

AZƏRTAC xəbər verir ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında ictimai-siyasi işin təşkili ilə bağlı məsələlərin əlaqələndirilməsi sektorun fəaliyyətinin əsas istiqaməti olacaq.

İctimai-siyasi məsələlər şöbəsinin gənclər təşkilatları ilə iş sektorunun müdiri vəzifəsində çalışmış Vüsal Quliyev yeni yaradılmış sektorun rəhbəri təyin edilib.

AZƏRTAC

# Bakıda insan hüquq və azadlıqlarının müdafiəsinə dair elmi-nəzəri konfrans keçirilib

*Konfrans ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilib*



**Mayın 3-də Bakıda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Hüquq və İnsan Haqları İnstitutunun və Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının birgə təşkilatçılığı ilə "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda elmi-nəzəri konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, konfrans ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilib.

AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun direktoru, Milli Məclisin deputatı Aytən Mustafayeva tədbiri açaraq bildirib ki, müasir dövrdə insan hüquqları sahəsi yeni problemlərlə qarşılaşıb. İnsan hüquqları yeni çərçivədə qiymətləndirilir. Təhlükəsizlik məsələsi ön plana çıxıb. Terror aktları, kiberterrorçuluq, yeni üsulda aparılan müharibələr yeni təhlükələrdir. Bu gün insanları bu təhlükələrdən qorumaq istiqamətində çətin və mürəkkəb problemlərlə üzləşmişik.

İnstitutun direktoru ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasətin nəticəsi olaraq Azərbaycanda insanların azad, sərbəst yaşamaq, hüquqlarını təmin etmək imkanlarına malik olmasından danışıb. O, Azərbaycanda insan hüquqlarının müdafiəsi istiqamətində ulu öndər Heydər Əliyev tərəfindən görülən işlərin, qəbul edilən qərarların əhəmiyyətini qeyd edib. Vurğulayıb ki, həyata keçirilən işlər Azərbaycanda bu sahəyə böyük diqqət göstərildiyini təsdiq edir.

Konfransda çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycanda insan hüquqlarının qorunması ilə bağlı mühüm işlərin görüldüyünü qeyd edib. O bildirib ki, 2018-ci il bir sıra əlamətdar hadisələrlə zəngindir. Bu il ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi, Azərbaycan Xalq Cümhuriyyətinin və 1918-ci ildə yaradılmış bir sıra dövlət qurumlarının, o cümlədən Azərbaycan parlamentinin, ədliyyə, prokurorluq orqanlarının, Silahlı Qüvvələrin yaradılmasının 100, Konstitusiya Məhkəməsinin yaradılmasının 20 illik yubileyləri qeyd ediləcək. Prezident İlham Əliyev bu ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edib. Bu qərar böyük əhəmiyyət kəsb edir.

Fərhad Abdullayev qeyd edib ki, hər il keçirilən və artıq bir növ ənənə halını almış bu elmi-nəzəri konfransın ulu öndər Heydər Əliyevin adı ilə bağlı olması heç də təsadüfi deyil. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıdan zaman Azərbaycanda keçmiş Sovet İttifaqından qalan qanunlar işləyirdi. Ulu Öndər gözəl başa düşürdü ki, Azərbaycanda milli Konstitusiyaya ehtiyac var. Odur ki, 1995-ci ilin may ayında ulu öndər Heydər Əliyevin birbaşa rəhbərliyi ilə Konstitusiya Komissiyası yaradıldı və 1995-ci ilin noyabr ayında insan hüquq və azadlıqlarının geniş təsbit olunduğu Konstitusiyamız qəbul edildi. Daha sonra Hüquq İslahatları Komissiyası yaradıldı və beynəlxalq hüquqi ekspertizadan keçmiş bir sıra mühüm qanunlar və məcəllələr qəbul edildi. O zaman bütün qanunlarımız həm Venesiya Komissiyası tərəfindən, həm də digər beynəlxalq nüfuzlu təşkilatlar tərəfindən öyrənilmiş və onlara rəy verilmişdi.

Konstitusiya Məhkəməsinin sədri əmin olduğunu bildirib ki, bu tədbir həm ulu öndər Heydər Əliyevin irsinin, onun Azərbaycan xalqı və dövləti qarşısında-kı tarixi missiyasının, həm də Azərbaycanın hüququ sisteminin öyrənilməsi baxımından çox faydalı olacaq.

Milli Məclisin sədr müavini, insan hüquqları komitəsinin sədri Bahar Muradova müzakirə edilən mövzunun əhəmiyyətini vurğulayıb. O bildirib ki, bu gün dünyadakı gərgin ictimai-siyasi vəziyyət fonunda Azərbaycanda hökm sürən sabitlik bir nümunədir.

Azərbaycan dövləti bugünkü bütün uğurlarını ulu öndər Heydər Əliyevə, onun dövlət quruculuğu, ölkəmizin inkişafı, xalqımızın rifahının yaxşılaşdırılması istiqamətindəki fəaliyyətinə, fədakarlığına və qəhrəmanlığına borcludur. Müasir dövrdə insan hüquq və azadlıqlarının tam təmin edilməsi istiqamətində bütün imkanları yaradan belə bir dövlət dünya ölkələri üçün bir nümunədir. Azərbaycanda insan haqlarının qorunması istiqamətində daim qanunlar qəbul edilir.

Bahar Muradova qeyd edib ki, Ulu Öndərin xidməti təkcə Azərbaycan xalqına və dövlətinə deyil, ümumiyyətlə, bütün insanlığa verdiyi töhfələrlə ölçülür. Bu irs hələ uzun illər öyrəniləcək və insanlıq bu irsdən bəhrələnəcək. Bu gün Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən, Azərbaycanı daha da irəliyə aparan İlham Əliyev kimi Prezidenti var. Ulu Öndərin layiqli varisi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz gündəngünə inkişaf edir, daha böyük uğurlar qazanır. Dünyadakı mövcud vəziyyətə baxmayaraq, Azərbaycandakı bugünkü sabitlik, malik olduğumuz dəyərlər, bu dəyərlərin birgəyaşayış normalarına çevrilməsi istiqamətindəki nailiyyətlər bir nümunədir.

Sonra Konstitusiya Məhkəməsinin hakimi Rövşən İsmayılov, Bakı Dövlət Universitetinin (BDU) hüquq fakültəsinin dekanı Əmir Əliyev, Hüquq və İnsan Haqları İnstitutunun şöbə müdiri Ayxan Rüstəmzadə, BDU-nun kafedra müdirinin müavini Elşad Nəsirov, Konstitusiya Məhkəməsinin şöbə müdiri Dürdanə Məmmədova və digərləri mövzu ilə bağlı məruzələrlə çıxış ediblər.

AZƏRTAC

# Azərbaycan Respublikasının Baş naziri ABŞ Konqresinin nümayəndə heyəti ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov mayın 3-də ABŞ Konqresinin Nümayəndələr Palatasının ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə ABŞ Konqresinin nümayəndələrini Azərbaycanda salamlamaqdan məmnunluğunu bildirən Baş nazir bu səfərin böyük əhəmiyyət daşıdığını qeyd edib. Novruz Məmmədov səfərin ikitərəfli münasibətlərin inkişafı ilə bağlı məsələlər ətrafında müzakirələr aparmaq üçün yaxşı fürsət olduğunu diqqətə çatdırıb.

Ölkələrimiz arasındakı münasibətlərə toxunan Baş nazir müstəqil Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında çox yaxşı əlaqələrin olduğunu bildirib. Münasibətlərimiz bu gün də uğurla inkişaf etdirilir. Bir sıra həssas sahələrdə isə çox möhkəm və sıx əməkdaşlıq mövcuddur.

Baş nazir Novruz Məmmədov qeyd edib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Amerika Birləşmiş Ştatları və Avropa İttifaqı ilə əlaqələrin genişləndirilməsinə xüsusi önəm verib. "Bu gün demokratik inkişaf yolu ilə irəliləyən Azərbaycan həmin yola sadiqdir. Həm ABŞ, həm də Avropa İttifaqı ilə əlaqələri uğurla davam etdirir", - deyə Azərbaycanın Baş naziri vurğulayıb.

Hazırda beynəlxalq aləmdə geosiyasi gərginliklərin müşahidə edildiyini bildirən Baş nazir Azərbaycanın yerləşdiyi regionun da geosiyasi baxımdan dünyanın mürəkkəb bölgələrdən biri olduğunu diqqətə çatdırıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Baş nazir Novruz Məmmədov ermənisilahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olduğunu, 1 milyondan çox insanın qaçqın və məcburi köçkünə çevrildiyini vurğulayıb. Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən münaqişənin hələ də həllini tapmadığını bildirib.

Baş nazir deyib ki, 1918-ci ildə müstəqilliyini elan etmiş, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin bu il 100 illik yubileyi qeyd olunacaq. Dövlətimizin başçısının Sərəncamı ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub və bir sıra mühüm tədbirlər həyata keçirilir. Novruz Məmmədov Azərbaycanda əsası 100 il əvvəl qoyulan hüquqi, demokratik dövlətçilik ənənələrinə ölkəmizin bu gün də sadiq qaldığını ifadə edib.

Azərbaycana səfərdən məmnunluq hissi duyduqlarını bildirən nümayəndə heyətinin rəhbəri Robert Qudlat ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayıb, bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə edib. O, Azərbaycan ilə əməkdaşlığın Amerika Birləşmiş Ştatları üçün dəyərli olduğunu diqqətə çatdırıb.

Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

AZƏRTAC

*Robert Qudlat:*

# ABŞ Azərbaycan ilə münasibətlərə xüsusi önəm verir

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvləri ilə görüşüb.**



Görüşdə Azərbaycan-ABŞ münasibətlərinin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub və ikitərəfli platformada əməkdaşlığın daha da dərinləşdirilməsinə dair fikir mübadiləsi aparılıb.

E.Məmmədyarov qonaqlara Azərbaycanın xarici siyasət prioritetləri, ölkəmizin təşəbbüsü və iştirakı ilə reallaşdırılmış və gündəmdə olan genişmiqyaslı enerji layihələri, qeyri-neft sektorunun inkişafı istiqamətləri barəsində məlumat verib.

Regionda sabitlik və təhlükəsizlik üçün başlıca təhdid olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barəsində danışan E.Məmmədyarov beynəlxalq səviyyədə tanınmış sərhədlərin dəyişdirilməsinə cəhdlərin yolverilməz olduğunu bildirib və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin də tələb etdiyi kimi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasının labüdlüyünü və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olduğunu vurğulayıb.

Nümayəndə heyətinin rəhbəri Robert Qudlat ABŞ-ın Azərbaycanla münasibətlərə xüsusi önəm verdiyini bildirib və əməkdaşlığın müxtəlif sahələri üzrə əldə edilmiş uğurların yeni perspektivlər vəd etdiyini əlavə edib.

Görüşdə, həmçinin beynəlxalq və regional gündəliyin müxtəlif məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

AZƏRTAC

# Gənclər və idman naziri Dünya Autizm Festivalında iştirak edən uşaqlarla görüşüb

**Mayın 3-də gənclər və idman naziri Azad Rəhimov Dünya Autizm Festivalına (ANCA) qatılan 15 nəfərlik xor və ritm kollektivinin üzvləri, onların valideynləri ilə görüşüb.**



Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, gəncləri Türkiyədə keçirilən festivalda uğurlu iştirakları münasibətilə təbrik edən nazir Azad Rəhimov Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının gənclərimiz üçün yaratdığı hərtərəfli imkandan bəhs edib. Nazir diqqətə çatdırıb ki, məhz Dövlət Proqramında sosial layihələrin həyata keçirilməsi bölümünün mövcudluğu daim bu səpkili layihələrə dəstəyin göstərilməsinə böyük təkan verir. Bu ilin sentyabrında Bakıda keçiriləcək Dünya Xüsusi Olimpiya Hərəkatı Forumu cəmiyyətin əqli imkanları məhdud olan gənclərə daha çox diqqət ayırmasına, bununla yanaşı, dünyada bu istiqamətdə həyata keçirilən yeni təşəbbüslərin öyrənilməsinə şərait yaradacaq. Nazir Azad Rəhimov görüş iştirakçılarını Bakıda keçiriləcək beynəlxalq tədbirdə də fəal iştirak etməyə həvəsləndirib.

"Birgə və Sağlam" İctimai Birliyinin autistlərdən ibarət 15 nəfərlik xor və ritm kollektivi bu il aprelin 23-27-də Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Türkiyənin Alanya şəhərində təşkil olunmuş II Dünya Autizm Festivalına (ANCA) qatılıb. Kanadanın ANCA Fondu və Türkiyənin OTİSİUM təşkilatı tərəfindən təşkil olunan festivala 12 ölkədən nümayəndələr qatılıblar. Festivalda müxtəlif ölkələrdə autizm sahəsində görülən işlər və fəaliyyət proqramı barədə təqdimatlar olub. Həmçinin festival çərçivəsində müxtəlif seminarlar, musiqi, rəsm, bir sıra idman yarışları da keçirilib.

Xor və ritm qrupunun üzvləri tamaşaçılara iki gün ərzində müxtəlif milli musiqi nümunələrimizi, eyni zamanda, fərdi qaydada qabiliyyətlərini nümayiş etdiriblər. Festivalda Azərbaycan haqqında ətraflı məlumat verilib, uşaqların ailələri tərəfindən hazırlanan şirniyyatlar müxtəlif ölkələrin nümayəndələrinə təqdim olunub.

Festivalın üçüncü günündə müxtəlif ölkələrin təmsilçiləri uzun məsafəyə qaçış marafonunda və velosiped yarışlarında iştirak ediblər.

"Birgə və Sağlam" İctimai Birliyinin kollektivi yüksək fəallığına görə festivalın fəxri fərmanı və medalları ilə təltif olunub.

AZƏRTAC

# Kənd təsərrüfatı naziri "AqroMərkəz" təşkilatının və "Texas A&M" Universitetinin mütəxəssisləri ilə görüşüb

**May ayının 3-də kənd təsərrüfatı naziri İnam Kərimov Azərbaycan Kənd Təsərrüfatı üzrə Təlim və İnkişaf Mərkəzi ("AqroMərkəz") və ABŞ-ın Texas A&M Universitetinin mütəxəssisləri ilə görüşüb. Görüşün məqsədi Azərbaycanda pambıq istehsalının səmərəli təşkili ilə bağlı müzakirələrin aparılması və bu sahədə milli platformanın yaradılması olub.**





Nazir İ.Kərimov qonaqları salamlayaraq ölkəmizdə pambıqçılığın kənd təsərrüfatının prioritet sahəsi olduğunu qeyd edib və bu sahədə böyük təcrübəsi olan beynəlxalq təşkilatlarla, həmçinin "AqroMərkəz" təşkilatının həyata keçirdiyi layihəyə dəstək veriləcəyini nəzərə çatdırıb.

Nazir pambıqçılıqla yanaşı, kənd təsərrüfatının digər sahələrinin də - məhsul istehsalının artırılması, analitik təhlillərin aparılması, mövcud problemlərin həlli ilə bağlı təkliflərin hazırlanması, aqrodəstək tədbirlərin səmərəliliyinin yüksəldilməsi və eyni zamanda aqrar məhsulların ticarətinin optimallaşdırılmasının ümumilikdə aqrar sektorun inkişafına təsir edəcəyini bildirib.

"AqroMərkəz" haqqında məlumat verən qonaqlar bildiriblər ki, təşkilat 2017-ci ildə Azərbaycanın strateji əhəmiyyət daşıyan kənd təsərrüfatı məhsulları üzrə infrastrukturun gücləndirilməsi, bu sahədə təlim və tədris sisteminin inkişaf etdirilməsi məqsədilə yaradılıb. Həmçinin, qonaqlar Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun mütəxəssisləri ilə birlikdə regionlara səfər edərək pambıq istehsalının təşkili ilə əlaqədar ilkin məlumat əldə etdiklərini diqqətə çatdırıblar.

Qeyd edək ki, Texas A&M Universiteti mütəxəssislərinin məqsədi "AqroMərkəz" təşkilatının nümayəndələri ilə birlikdə ölkəmizdə pambıq istehsalının səmərəli təşkili ilə əlaqədar araşdırma aparmaqdan ibarətdir.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Güclü ordu və müasir prokurorluq dövlət siyasətinin tərkib hissəsidir

**Azərbaycan xalqının ümummilli lideri dedikdə, hər birimizin təxəyyülündə yalnız bir şəxsiyyətin parlaq siması canlanır ki, həmin dahi və təkrarolunmaz insan Heydər Əliyevdir. Həmin yüksək və şərəfli adı Heydər Əliyevə bütün Azərbaycan xalqı vermişdir. Tanrının ona bəxş etdiyi qeyri-adi fitri keyfiyyətlər sayəsində ulu öndər Heydər Əliyev tarixi hadisələrin gedişini əvvəlcədən müəyyən etməyi, ölkəmiz və xalqımız üçün olduqca mühüm əhəmiyyət kəsb edən qərarlar qəbul edilən zaman zəngin yüksək bilik, sarsılmaz iradə nümayiş etdirməklə qətiyyətli addımlar atmağı bacarırdı. Bu böyük liderin müdrikliyi və qətiyyəti istər ziyalılardan ibarət geniş auditoriya, istərsə də xeyli sayda insan qarşısında çıxışları zamanı əksər vaxtlarda bədahətən söylədiyi fikirlərdə də özünü aydın büruzə verirdi.**



## Azərbaycanı parlaq gələcəyə aparan yol

Ulu öndər təkcə Azərbaycana rəhbərlik etdiyi dövrdə deyil, bütün ömrü boyu, qədim və şərəfli tarixi, zəngin mədəniyyəti ilə həmişə qürur duyduğu ölkəsinin müstəqilliyini, tərəqqisini, millətinin rifahını düşünmüş və bu ali məqsədlər uğrunda mübarizə aparmışdır. Bütün həyatını doğma xalqına və Azərbaycanın çiçəklənməsinə həsr etmiş ümummilli liderimiz hələ 14 iyul 1969-cu ildən — birinci dəfə ölkəmizə rəhbərlik etdiyi ilk günlərdən milli məfkurənin formalaşdırılmasını və Azərbaycanı hərtərəfli və sürətli inkişaf etdirməklə müstəqil dövlətə çevirməyi qarşısına məqsəd qoydu. Onun Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçilməsindən sonra Azərbaycan tarixi tam fərqli, yeni mərhələyə qədəm qoydu ki, bu da Azərbaycana və azərbaycanlılara qarşı münasibətin tədricən dəyişməsinə səbəb oldu. Bununla da, iqtisadi, sosial, siyasi, mədəni və digər sahələrdə tənəzzül dövrünü yaşayan Azərbaycanda dinamik və çoxşaxəli yuksəlişin, milli ruhun təşəkkül tapmasının əsası qoyuldu. Heydər Əliyev tükənməz gücü, istedadı, parlaq zəkası, uzaqgörən düşüncəsi, dərin məntiqi, polad iradəsi və dönməz qətiyyəti sayəsində Azərbaycanı parlaq gələcəyə aparan yolu hələ o dövrdə müəyyən etdiyi və sonradan ölkəmizin həmin yolu uğurla getməsini yüksək peşəkarlıqla təmin etdiyi üçün, nəinki Azərbaycan tarixinin 1969-2003-cü illəri əhatə edən dövrü yaddaşlara “Heydər Əliyev dövrü” kimi həkk olundu, hətta Azərbaycan və Heydər adlarının əbədi olaraq birlikdə çəkilməsinə səbəb oldu. Heydər Əliyev elə o dövrdə, əlbəttə, mövcud olan ideologiyaya kəskin zidd olmayan formada olsa belə, Azərbaycanda milli ruhun sıxışdırılmasına qəti olaraq imkan vermədi, onu yüksəltmək yolunda bütün vasitələrdən mümkün dərəcədə istifadə etməyi bacardı. Təsadüfi deyil ki, onun ilk dəfə hakimiyyətə gəlişi milli ruhun, özünüdərkin, özünəqayıdışın, Azərbaycançılıq məfkurəsinin formalaşmasının başlanğıcı kimi qəbul edilir.

Məhz həmin dövrdən etibarən əsası qoyulan Heydər Əliyev fəlsəfəsinin başlıca istiqamətini xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş formalaşdırılmasına, milli şüurun güclənməsinə və millətin qürur hissinin yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi təşkil edirdi. Bütün sahələr üzrə peşəkar milli kadrlar hazırlamağı prioritet istiqamət hesab edən ulu öndər Heydər Əliyev ilk növbədə hakimiyyət strukturlarına əsasən sadə insanların içərisindən seçdiyi azərbaycanlıları yerləşdirməklə xalqın birləşməsinə və respublikanın tərəqqi yoluna çıxarılmasına nail olurdu. Bütün bunlar isə, təbii ki, müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaradırdı. Heydər Əliyev dərindən dərk edirdi ki, millətin siyasi müstəqilliyinin özülünü onun iqtisadi cəhətdən azadlığı şərtləndirir. Buna görə də SSRİ-nin əyalətlərindən biri kimi yanaşıldığından 60-cı illərin sonlarına doğru həyatın bütün sahələrində, o cümlədən iqtisadi sahədə geriləyən, mənfi meyillərin güclənərək getdikcə daha dərin kök saldığı Azərbaycanda hakimiyyətə gələn dahi öndərin ilk işlərindən biri, respublikada iqtisadi potensialın dağılmasının, ictimai-siyasi həyatda yaranmış tənəzzülün qarşısını almaqdan ibarət oldu. Heydər Əliyevin gərgin əməyinin, yorulmaz fəailiyyətinin və yüksək idarəçilik qabiliyyətinin sayəsində o illərdə ictimai və iqtisadi sahədəki köklü islahatlar, baş verən dəyişikliklər miqyasına və xalqın rifahının keyfiyyətcə yeni mərhələyə keçməsinə görə Azərbaycanın quruculuq salnaməsində ən parlaq dövrünü təşkil etmişdir.

Heydər Əliyevin müstəqil dövlətçilik strateji proqramının özünəməxsusluğu onunla səciyyələnirdi ki, burada nəzərdə tutulan tədbirlərin icrası bir sahənin deyil, bütün sahələrin çoxşaxəli inkişafını və milliləşdirilməsini təmin edirdi. Heydər Əliyevin milli müstəqil dövlət quruculuğuna gedən yolda gördüyü böyük işlər, SSRİ-nin daxili və xarici siyasəti çərçivəsində olsa da, Azərbaycanın xarici aləmlə iqtisadi, mədəni, elmi və sair sahədə əlaqələrinin genişləndirilməsinə xidmət edirdi. Bu məqsədlə Bakıda ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlər təşkil olunur, eləcə də SSRİ respublikaları və digər xarici ölkələrdə Azərbaycan elmi, mədəniyyəti və incəsənəti günləri keçirilirdi ki, bütün bunlar xarici ölkələrlə, orada yaşayan insanlarla əlaqələrin qurulmasına, azərbaycanlıların xalq olaraq özünəməxsus tarixi, mədəni ənənələrinin hər yerdə tanınmasına, Bakının isə həmin dövrdə dünya miqyasında tanınan mədəniyyət və elm mərkəzinə çevrilməsinə, nəticədə isə Azərbaycan iqtisadiyyatının möhkəmlənməsinə hesablanmışdı.

Ulu öndərin dərindən düşünülmüş məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın aqrar-sənaye kompleksi də bir neçə dəfə genişləndirildi və ölkənin nəinki ərzaq müstəqilliyi təmin olundu, üstəlik, daxili məhsulun yarısından da artıq çəkisi olan bir sahəyə çevrildi. Azərbaycanın rayonlarında yüzlərlə zavod və fabrik tikildi. Kəndlərdə əhalinin əksəriyyəti dövlətdən əməkhaqqı almağa başladı. İqtisadi yüksəliş, sözsüz ki, bütün sahələrin inkişafına, eləcə də mənəvi dəyərlərin möhkəmlənməsinə, milli şüurun oyanmasına, Azərbaycançılıq məfkurəsinin formalaşmasına təkan verdi.

## Güclü ordu suverenliyin təminatıdır

Ümummilli liderin zəngin və çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən birini də Azərbaycanın təhlükəsiz və firavan gələcəyinə təminat verən ordu quruculuğu təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra ölkəmizdə ordu quruculuğu prosesində yaranmış durğunluq, ulu öndərin birinci dəfə hakimiyyətə gəlişindən sonra aradan qaldırılmaqla, bu sahədə əsaslı dönüş yaratdı. Qısa bir zamanda Azərbaycanda SSRİ müdafiə sənayesinin on bir böyük zavodunun tikilməsi, həmin zavodlarda o dövrün ən müasir və qabaqcıl texnologiyalarının tətbiq olunması Azərbaycan Respublikasının müdafiə sənayesi istehsalında keyfiyyətli məhsulların həcmini dəfələrlə artırırdı ki, bu da müstəqilliyə doğru gedən yolda zəruri amil idi. Yeri gəlmişkən qeyd olunmalıdır ki, hazırda həmin zavodların hamısı Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tərkibinə daxildir.

Bununla bərabər, ölkəmizdə milli hərbi kadrların hazırlanması prosesi də sürətləndi. Məhz ulu öndərin son dərəcə cəsarətli addımları sayəsində 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb fəaliyyətə başladı. Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayan məktəbin açılması ovaxtkı SSRİ rəhbərliyini ciddi şəkildə narahat etdiyindən, həmin dövrdə bir-birinin ardınca Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını əsaslandırmağa çalışsalar da, Heydər Əliyev mahir diplomatiyası və qətiyyəti ilə bu cəhdlərin qarşısını almağa müvəffəq oldu. Adıçəkilən hərbi məktəbin fəaliyyətə başlaması Azərbaycanda hərb sahəsinə marağın daha da güclənməsinə böyük təkan verdi. Bununla yanaşı, Heydər Əliyev azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə də xüsusi önəm verirdi. Təsadüfi deyildir, ki, müstəqilliyin ilk illərində Azərbaycanın ordu quruculuğunda əsas bazanı o dövrdə hazırlanmış milli kadrlar təşkil edirdi. Göründüyü kimi, Azərbaycanın müstəqillik əldə etməsindən hələ 20 il öncə milli hərbi kadr hazırlığı üçün zəruri bazanın ən yüksək səviyyədə təşkilini ümummilli lider Heydər Əliyev həyata keçirmişdir.

Ardıcıl olaraq iki dəfə, olduqca mürəkkəb dövrlərdə Azərbaycana rəhbərlik edərək misilsiz fədakarlıqlar göstərməklə ölkəsini bəlalardan qurtaran, xalqın xidmətində dayandığını konkret əməlləri ilə nümayiş etdirən Heydər Əliyev bir çox siyasi xadimlərin edə bilmədiklərini gerçəkləşdirməklə, dünyanın ən tanınmış siyasi xadimləri sırasında öz layiqli və əbədi yerini tutdu. Hər kəsə məlumdur ki, müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi və siyasi şüurun dirçəlişinin 30 ildən artıq bir dövrü əhatə edən zaman kəsiyi böyük siyasi xadim, dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin-Heydər Əliyevin adı, əməli fəaliyyəti, reallaşdırdığı konkret işlərlə bağlıdır. Zəmanəmizin böyük filosofu və mütəfəkkiri Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi milli özünüdərk duyğuları, azərbaycançılıq fəlsəfəsi xalqın tarixi yaddaşını özünə qaytarmaqla, milli ruhun sürətli yüksəlişini təmin edərək, müstəqil dövlətçiliyimizin yaranması üçün zəruri olan, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratdı.

Ötən əsrin 70-ci illərindən formalaşan iqtisadi potensialın inkişafı azadlıq mübarizəsini zəruri edən amillərdən olduğundan 80-ci illərin sonu, 90-cı illərin əvvəlində müstəqillik hərəkatının geniş vüsət alması da Heydər Əliyevin birinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə reallaşan iqtisadi yüksəliş və ona paralel olaraq, azərbaycançılıq, həmrəylik, mübarizlik ruhunun təşəkkül tapması sayəsində mümkün oldu.

Dövlətçiliyin dağılması və müstəqilliyin itirilməsi təhlükəsi qarşısında qaldığı zaman nicatın məhz Heydər Əliyevdə olduğunu yaxşı dərk edən Azərbaycan xalqı 1993-cü ilin iyun ayında ulu öndərə müraciət edərək onun hakimiyyətə gəlməsini təkidlə tələb etdikdə, o, qarşıda onu gözləyən çətinlikləri əvvəlcədən görməsinə baxmayaraq, heç nədən və heç kimdən çəkinmədən yenə də xalqının yanında olmağa qərar verdi. Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, iqtisadi, sosial, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsaslı dönüş yaranmaqla, elmə, müasir beynəlxalq standartlara və prinsiplərə əsaslanan müstəqil dövlət quruculuğu prosesi başlandı. Məhz özünün sayəsində Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan səmərəli istifadə edərək 20 sentyabr 1994-cü il tarixdə “Əsrin müqaviləsi” adlandırılan ilk və nəhəng neft müqaviləsinin imzalanmasına və onun gerçəkləşdirilməsinə nail olan Heydər Əliyev, bununla da müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin dərin özülünü qoydu.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə bağlı pərdəarxası oyunlara və eksperimentlərə son qoyulmaqla, ölkədə siyasi anarxiyanın, xaosun və cinayətkarlığın qarşısı bütünlüklə alındı, həmçinin Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişi cəhdləri vaxtında və qətiyyətlə zərərsizləşdirilərək dövlət müstəqilliyi qorunub saxlanıldı. Məhz buna görə də o dövrdə Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla və sürətlə həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə bağlıdır. Bütün bunlar da, öz növbəsində Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün əlverişli şərait yaratdı. Bundan sonra ölkəmizdə müstəqil dövlət quruculuğu, o cümlədən dövlət təsisatlarının yaranması prosesi böyük vüsət aldı ki, bunun da hüquqi əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyası təşkil edirdi. Müstəqil dövlətin yeni Konstitusiyasının hazırlanmasını zəruri hesab edən ulu öndər Konstitusiya layihəsinə baxılması üçün xüsusi komissiyaya müvafiq göstərişlər verdi, bundan sonra, 12 noyabr 1995-ci il tarixdə keçirilmiş ümumxalq səsverməsi-referendum yolu ilə Azərbaycan Respublikasında dövlət quruculuğunun hüquqi əsasını təşkil edən Konstitusiya qəbul edildi.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə əsas qayəsini azərbaycançılıq, müstəqillik, dövlətçilik, dünyəvilik, ədalət, demokratiya, milli tərəqqi kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu. Onun dəyərli və çoxşaxəli fəaliyyətinin prioritetlərində köklü iqtisadi islahatlar aparılması, bazar iqtisadiyyatının bərqərar olması, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası yolu ilə Azərbaycanın hər bir vətəndaşının öz rifahını yaxşılaşdırmaqla azad, sərbəst, firavan yaşamasını təmin etmək üstünlük təşkil edirdi. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Ulu öndərin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan xüsusi bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli oldu.

Ümummilli liderin fəal və peşəkar diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının ölkəmizin zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişilməsinə nail olundu. Onun beynəlxalq sivil prinsipləri özündə tam ehtiva etdirən xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, dövlətlərin ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət və qarşılıqlı surətdə faydalı iqtisadi, elmi, mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması təşkil edirdi. Ulu öndər Heydər Əliyevin növbəti dəfə hakimiyyətə qayıdışından və Azərbaycana ikinci dəfə rəhbərlik etməyə başlamasından sonra respublikamızda bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da köklü islahatlar həyata keçirilməyə başlanıldı. Müstəqilliyimizin ilk illərində erməni təcavüzü, daxili çəkişmələr, yeni yaradılmış özünümüdafiə taborlarının ayrı-ayrı siyasi məqsədlərə xidmət etməsi bir tərəfdən torpaqlarımızın işğal olunmasına şərait yaradır, digər tərəfdən ordumuzun yaranmasına mane olurdu. Həmin vaxt başlıca vəzifələrdən biri də ölkə gəncləri arasında özünə inamı, vətənvərvərlik hissini, milli mübarizə əzmini və döyüş ruhunu yüksəltmək olduğundan, müdrik lider Heydər Əliyev böyük siyasi səriştəyə, təcrübəyə və dünyagörüşünə malik rəhbər kimi bu reallığı düzgün dəyərləndirir, gənclərin könüllü hərbi səfərbərliyini təmin etmək üçün respublikada ideoloji-təbliğat işini gücləndirirdi. Bu istiqamətdə görülən işlərin ən mühümü və əhəmiyyətlisi Ulu öndərin 2 noyabr 1993-cü ildə xalqa müraciəti oldu. Kifayət qədər mürəkkəb bir dövrdə televiziya və radio vasitəsi ilə Azərbaycan xalqına, xüsusilə ölkə gəncliyinə müraciət edən Heydər Əliyev cəbhə bölgəsində yaranmış vəziyyəti geniş şəkildə təhlil etməklə, uğursuzluqların səbəblərini dəqiqliklə göstərərək, ordunun siyasiləşdirilməsi hallarını qətiyyətlə pisləməklə, bəzi qüvvələrin çirkin siyasi məqsədlər naminə silahlı qruplaşmalar yaratdığını, dövlətçiliyə və xalqa qəsd yolu tutduğunu təəssüflə vurğulayaraq xalqı bütün bu uğursuzluqlara, ağrılı məqamlara məhəl qoymamağa, o cümlədən ölkə gənclərini ruhdan düşməməklə səfərbər olmağa, düşmənə qarşı layiqli müqavimət təşkil etməyə çağırdı və sözsüz ki, bütün xalq, xüsusən də gənclər bu çağırışı cavabsız qoymayaraq dahi öndərin ətrafında daha da sıx birləşməyə başladı.

Ümummilli liderin mütəmadi olaraq ön cəbhəyə getməsi, səngərlərdə uzun müddət dayanmaqla Azərbaycanın mərd oğulları ilə bilavasitə təmasda olması, onların qayğısına qalaraq problemləri və ehtiyacları ilə maraqlanması, xidmətdə fərqlənənləri elə yerindəcə mükafatlandırması şəxsi heyətə əlavə güc verməklə, onlarda yüksək döyüş ruhu yaradırdı. Bununla bərabər, ulu öndərin, Vətənin azadlığı uğrunda canından keçmiş şəhidlərin, o cümlədən Azərbaycanın Milli Qəhrəmanlarının ailə üzvləri ilə görüşməklə, onların yanında olduğunu bildirməsi də ordu quruculuğu sahəsində görülən işləri sürətləndirdi.

Ordu quruculuğunun elmi-təcrübi əsaslar üzərində və vahid komandanlıq prinsipi əsasında yüksək peşəkarlıqla həyata keçirilməsi cəbhədə gedən döyüş əməliyyatlarına da öz müsbət təsirini göstərirdi. Dövlət Müdafiə Şurasının ilk iclasında korrupsiyaya, cinayətkarlığa, Vətən qarşısında öz müqəddəs borcunu yerinə yetirməkdən boyun qaçıran şəxslərə qarşı ciddi mübarizə aparılacağının bəyan edilməsi və bu istiqamətdə atılan qətiyyətli addımlar da ordumuzun döyüş hazırlığının yüksəlməsinə böyük təkan verdi. Əvvəlcə qanunsuz hərbi dəstələr buraxıldı və Silahlı Qüvvələr tam dövlət nəzarətinə keçirildi. Bundan sonra, digər ölkələrin qanunvericilik təcrübəsindən istifadə olunmaqla və Dağlıq Qarabağ müharibəsi təcrübəsinə əsaslanılmaqla mükəmməl hərbi qanunvericilik bazası yaradılması prosesi başladı. Görülən işlər qısa müddətdən sonra öz səmərəsini verdi və güclü Azərbaycan ordusu formalaşmağa başladı. Azərbaycan Ordusunun gücləndiyini görən və onun tərəfindən aparılan uğurlu döyüş əməliyyatlarından təşviş içində olan düşmən 12 may 1994-cü il atəşkəs haqqında müqaviləni imzalamaq məcburiyyətində qaldı. Bundan sonra, çağırış və səfərbərlik işi xeyli təkmilləşdirildi, ordumuzun daha da güclənməsi üçün bir çox mühüm tədbirlər həyata keçirildi, bunun nəticəsində hərbi hissələrdə intizam möhkəmləndi və qanunun aliliyi prinsipi bərqərar oldu. Bütün bunlar gənclərdə orduya inamı və marağı artırmaqla xeyli insanın peşəkar hərbi qulluqçu kimi hazırlanmasına, hərbi ixtisaslara dərindən yiyələnməsinə rəvac verdi.

Azərbaycan Ordusunun beynəlxalq əlaqələrinin gücləndirilməsini də xüsusi diqqət mərkəzində saxlayan Ali Baş Komandan Heydər Əliyev milli ordunu modernləşdirmək üçün sovet hərb sistemini dəyişib, NATO standartlarını tətbiq etməyin zəruriliyini yaxşı dərk etdiyi üçün, Şimali Atlantika Alyansının beynəlxalq münasibətlər sistemində yeri və rolunu nəzərə alaraq ölkəmizin NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramına qoşulması barədə qətiyyətli qərar verdi və 4 may 1994-cü ildə Brüsseldə təşkilatın çərçivə sazişini imzaladı. Yeri gəlmişkən qeyd olunmalıdır ki, 19 noyabr 2001-ci ildə Azərbaycan Respublikası NATO-nun Parlament Assambleyasına assosiativ üzv qəbul edilmişdir.

Ordu quruculuğunda keyfiyyətli hərbi təhsilin və ixtisaslı gənc hərbi kadrların hazırlanmasının son dərəcə strateji əhəmiyyətli məsələ olduğunu hər zaman vurğulayan Heydər Əliyev bu sahəni də hər zaman diqqət mərkəzində saxlayırdı. Əsası 1971-ci ildə Naxçıvanski adına Hərbi Liseylə qoyulan hərbi təhsil müəssisələrimizin sayını artırmaqla Silahlı Qüvvələrin Hərbi Akademiyasının, Ali Hərbi Məktəbin, Naxçıvan Ali Hərbi Məktəbinin, Təlim və Tədris Mərkəzinin, Ali Hərbi Dənizçilik Məktəbinn, Ali Hərbi Təyyarəçilik Məktəbinin və sair nüfuzlu ali hərbi təhsil ocaqlarının müasir tələblərə uyğun təşkil edilməsi də məhz Ulu öndərin bu sahədəki misilsiz xidmətlərinin bariz nümunələri idi. Hazırda respublikamızın Silahlı Qüvvələri üçün müxtəlif kateqoriyadan olan hərbi kadrların hazırlanması Azərbaycan Ali Hərbi Məktəblərində, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində, Hərbi Akademiyasında və digər hərbi təhsil müəssisələrində uğurla həyata keçirilir. 1997-ci ildən bu məktəblərdə NATO standartlarına uyğun tədris proqramı tətbiq olunur. Silahlı Qüvvələrin Hərbi Akademiyasında hərbi qulluqçularla yanaşı, dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə də hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsi təşkil edilir. MDB-yə üzv olan bir neçə dövlət ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən imzalanmış sazişlərə əsasən bu ölkələrin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tabeliyində olan hərbi təhsil müəssisələrində təhsil alması bu sahədə qazanılan uğurları bir daha təsdiq edir.

Bütün dünyaya bəllidir ki, bu gün Azərbaycanın Silahlı Qüvvələri 90-cı illərin əvvəllərindəki siyasiləşmiş ayrı-ayrı silahlı dəstələrdən ibarət deyil, vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı möhkəmlənmiş, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan və müasir tələblərə cavab verən bir ordudan ibarətdir. Xüsusi vurğulanmalıdır ki, hazırda cəmiyyətdə Azərbaycan Ordusuna böyük güvən və ictimai inam mövcud olduğundan, rəşadətli ordumuz dövlətin və xalqın dəstəyini yaxından hiss edərək mənəvi-psixoloji cəhətdən daha da möhkəmlənmişdir.

Təbii ki, bütün bunlar öz-özünə baş verməmiş və ordumuzun hazırkı səviyyədə formalaşması ümummilli liderimizin başladığı çətin, mürəkkəb, keşməkeşli, eyni zamanda şərəfli, uğurlu yollar keçən və Möhtərəm Prezidentimiz tərəfindən yüksək peşəkarlıqla davam etdirilən ordu quruculuğu sayəsində mümkün olmuşdur. Ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan Azərbaycan Silahlı Qüvvələri bu gün yeni inkişaf yoluna qədəm qoymaqla Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir. Ordu quruculuğu sahəsində qazanılan nailiyyətlərin bütün parametrlər üzrə daha da inkişaf etdirilməsinin fəaliyyətində prioritet istiqamətlərdən biri olacağını bəyan etmiş Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının genişləndirilməsi, hərbi qulluqçuların sosial müdafiəsinin möhkəmləndirilməsi sahəsində həyata keçirdiyi tədbirlər Vətənin müdafiəçilərinin şərəfli işinə verilən yüksək qiymətin təzahürüdür.

Son illərdə keçirilən hərbi paradlar göstərdi ki, Azərbaycan ordusu sürətlə inkişaf edərək arsenalını ən müasir silah, digər hərbi texnika ilə zənginləşdirmiş və bu gün dünyanın hərbi cəhətdən inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda da mövcuddur. 2016-cı ilin məlum aprel döyüşlərində düşmənin hərbi təxribatlarının qarşısının alınması zamanı çevik və mütəşəkkil hərbi əməliyyatlarla düşmənin hərbi obyektlərini darmadağın edən, bir sıra mövqelərini ələ keçirən və bəzi yaşayış məntəqələrini işğaldan azad edən Silahlı Qüvvələrimiz bunu bir daha sübuta yetirdi. Azərbaycan Ordusunun qısa zamanda həyata keçirdiyi uğurlu əməliyyatlar — düşmənin çoxlu sayda canlı qüvvəsinin və zirehli texnikasının, habelə strateji əhəmiyyətli hərbi bazalarının güclü atəş zərbəsi ilə məhv edilməsi, mühüm əhəmiyyətli ərazilərimizin geri qaytarılması, xalqımızın böyük coşqusu, sevinci və mənəvi dəstəyi ilə qarşılandı. Bununla da, bir daha təsdiqləndi ki, ən müasir texnika və hərbi avadanlıqlarla təchiz olunmuş Azərbaycan Respublikasının Silahlı Qüvvələri vətənpərvər, yüksək döyüş hazırlığına və ruhuna malik, hərbi-texniki vərdişlərə dərindən yiyələnmiş peşəkar kadrlardan ibarət olmaqla, Ali Baş Komandanın əmri ilə qısa zamanda torpaqlarımızın işğaldan azad olunmasına qadirdir.

## Prokurorluğa göstərilən diqqət və qayğı ədalətin daha etibarlı müdafiəsinə hesablanmışdır

Prokurorluq işçisi olaraq ümummilli lider Heydər Əliyevdən danışarkən, onun prokurorluğa, o cümlədən prokurorluq işçilərinə göstərdiyi yüksək diqqət və qayğından söz açmamaq mümkün deyil. Ümummilli lider deyirdi: “...Azərbaycan Prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliynə sadiq olaraq Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir...”.

Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin və xalqın maraqlarına, qanunun aliliyinin təmin edilməsinə və insan hüquqlarının müdafiəsinə xidmət edən sivil və demokratik qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici və maddi-sosial bazanın yaradılması ulu öndərin ölkəmizdə bütün sahələrdə, o cümlədən prokurorluqla bağlı həyata keçirdiyi ardıcıl və çoxşaxəli islahatlar, prokurorluğa göstərdiyi böyük dəstək və qayğı sayəsində mümkün olmuşdur.

**(davamı 4-cü səhifədə)**

# Güclü ordu və müasir prokurorluq dövlət siyasətinin tərkib hissəsidir

**(əvvəli 3-cü səhifədə)**

Azərbaycan Prokurorluğu bir əsrə yaxın müddət, 80 il ərzində dövlətin etibarlı dayaqlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsinə dövlət tərəfindən heç bir təşəbbüs göstərilməmiş, bununla əlaqədar hər hansı rəsmi tədbir görülməmişdir. Ümummilli lider Heydər Əliyevin 17 iyul 1998-ci il Sərəncamı ilə hər il 1 oktyabrın prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunması təkcə tarixi reallığın bərpa olunması deyil, həmçinin hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğun roluna rəsmi münasibətin və dövlət qayğısının yüksək səviyyədə təzahürü olmuşdur. Ulu öndərin 28 noyabr 1998-ci il Prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda prokurorluğun fəaliyyətini istiqamətləndirən: "...Azərbaycan Prokurorluğunda sağlam mənəvi mühit yaratmaq lazımdır. Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə-işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir, bizim tələbimiz isə qanundur, qanunun aliliyidir, mənəviyyatın da hamısı qanunun içərisindədir. Prokurorluq peşəsi ağır, çətin peşədir, amma, eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim, çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda, Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır, buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram..." kimi dəyərli kəlamlarını hər bir prokurorluq işçisi daim rəhbər tutmaqla xidməti fəaliyyətində tətbiq edir.

Hər kəsə, o cümlədən hər bir prokurorluq işçisinə məlumdur ki, prokurorluq orqanlarında aparılan hərtərəfli islahatların ilkin əsasını və qanunvericilik bazasını dahi rəhbərimizin təşəbbüsü əsasında 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası təşkil etmişdir. Yeni qəbul edilmiş Konstitusiya ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmaqla yanaşı, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edildiyini özündə dəqiq əks etdirdi. Ali qanunumuzda ilk dəfə olaraq respublikanın dövlət quruluşu sistemində prokurorluğun layiqli yeri müəyyənləşdirilmiş, məhkəmə hakimiyyəti sisteminə daxil edilən prokurorluq orqanlarının statusu, təşkili, fəaliyyət istiqamətləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında təsbit edilmişdir. Ulu öndər Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında 7 dekabr 1999-cu ildə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi isə qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmaqla bərabər, prokurorluq orqanlarının daha da demokratikləşməsini, qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etmişdir. Bundan sonra, Beynəlxalq hüquq normalarına, demokratik prinsiplərə və milli ənənələrə uyğun hazırlanmış "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" Azərbaycan Respublikası qanunlarının və digər normativ-hüquqi aktların qəbul edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənməsi prosesi dövrün tələblərinə və beynəlxalq standartlara cavab verən səviyyəyə yüksəlmişdir. Ümummilli liderin prokurorluq işçilərinin rifahına xidmət edən "Azərbaycan Respublikası Prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 8 oktyabr 2002-ci il tarixli Sərəncamı isə hər bir prokurorluq işçisində böyük ruh yüksəkliyinin yaranmasına səbəb olmuşdur.

Ulu öndərin Prokurorluq orqanlarının rəhbər işçilərinə mütəmadi olaraq verdiyi müdrik tövsiyə və göstərişlərin əsasında, Azərbaycan Respublikası Prokurorluğu orqanlarında aparılan, bugün də yeni müstəvidə eyni intensivliklə davam etdirilən hərtərəfli islahatlar nəticəsində prokurorluğun fəaliyyətinin təkmilləşməsi və bunun üçün zəruri normativ-hüquqi bazanın yaradılması, ciddi tələbkarlıq şəraitinin formalaşdırılması, kadrların seçilməsinin yeni mütərəqqi formalarının tətbiqi təmin edilmiş, dövlətçiliyin, milli maraqların, insan hüquq və azadlıqlarının etibarlı qorunması, cinayətkarlığa qarşı mübarizə yüksək səviyyədə təşkil olunmuşdur.

Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"nin qəbul edilməsi və onun icraya yönəldilməsi Azərbaycan Respublikası Prokurorluğunda aparılan islahatların ən böyük uğurlarından olmaqla, prokurorluğun kadr tərkibinin yenidən formalaşdırılması kimi mühüm məsələnin əsasını təşkil etmişdir. Prokurorluq orqanlarına işə qəbulun demokratik prinsiplər əsasında, şəffaf prosedurlarla müsabiqə yolu ilə həyata keçirilməsinin nəticəsində prokurorluğun kadr tərkibinin hərtərəfli inkişaf etmiş, zəngin biliyə malik, geniş dünyagörüşü olan, yüksək mənəvi keyfiyyətlərə malik, vətənpərvər, dövlətçilik prinsiplərinə sadiq gənc hüquqşünaslardan formalaşmasına və mütəmadi olaraq yenilənməsinə nail olunmuşdur.

Əsası müasir Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən qoyulan bütün hüquq-mühafizə orqanlarına, o cümlədən prokurorluğa hərtərəfli diqqət və qayğı göstərilməsi ənənəsi möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən də davam etdirilir. Xüsusi vurğulanmalıdır ki, Prokurorluq orqanlarının müasir dövrün tələblərinə cavab verən dövlət orqanı səviyyəsinə uyğun təkmilləşdirilməsində möhtərəm Prezidentimizin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" mühüm əhəmiyyətə malikdir. Azərbaycan Prokurorluğunun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoyan Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün əlverişli şərait yaratmışdır.

Müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun yarandığı vaxtlarla təqribən eyni zamandan Hərbi Prokurorluq orqanlarında qulluq keçən şəxs olmaqla, istər Silahlı Qüvvələrdə aparılan möhtəşəm quruculuq işlərinin, istərsə də Prokurorluqda, o cümlədən Hərbi Prokurorluqda həyata keçirilən köklü islahatların bilavasitə şahidi kimi xüsusi vurğulamağı özümə borc hesab edirəm ki, hazırkı Silahlı Qüvvələr və Prokurorluq, o cümlədən Hərbi Prokurorluq müstəqilliyin ilk illərindəkindən müasirlik, peşəkarlıq, hərtərəfli inkişaf və digər mütərəqqi keyfiyyətlər baxımından müqayisəolunmaz dərəcədə fərqlənir. Göründüyü kimi, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı, dünya dövlətləri sırasına çıxarmaqla, beynəlxalq aləmdə özünəməxsus yerini müəyyən etdiyi müstəqil Azərbaycan Respublikası əsrin dörddə biri qədər olan dövrdə nəinki suveren yaşamağa, eyni zamanda, bir sıra sahələrdə beynəlxalq maraq doğuran ciddi iqtisadi, sosial, siyasi və mədəni uğurlara imza atmağa nail olmuşdur.

Sözsüz ki, bu möhtəşəm uğurların davamlı olmasında ölkəyə artıq 15 ildir ki, rəhbərlik edən möhtərəm Prezidentimiz İlham Əliyevin və onun xanımı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri olduqca böyükdür. Yeri gəlmişkən, qeyd olunmalıdır ki, dərin elmi biliyi, məntiqi düşüncəsi, yüksək intellekti, tükənməz xeyirxah əməlləri, ən əsası, mənsub olduğu xalqın milli-mənəvi dəyərlərinə sadiqliyi, millətinə, dövlətinə sədaqəti və əsl Azərbaycan xanımına xas digər nümunəvi xüsusiyyətləri Mehriban xanıma bütün Azərbaycan xalqının sonsuz məhəbbətini qazandırmışdır. Məhz buna görə də möhtərəm Prezidentimizin 21 fevral 2017-ci il tarixli Sərəncamı ilə Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi xalqımız tərəfindən böyük sevinc və məmnunluq hissi ilə qarşılanmışdır.

Məlum olduğu kimi, 11 aprel 2018-ci il tarixdə Azərbaycanda Prezident seçkiləri keçirildi. Təbii ki, ölkədə hökm sürən ictimai-siyasi sabitlik və hərtərəfli, dinamik inkişafın göstəriciləri seçkinin taleyinin həll olunmasında ciddi rol oynadı və xalq gördüyünə, yaşadığına əsaslanaraq, taleyini inandığı və sonsuz məhəbbətlə sevdiyi siyasətçiyə, Ulu öndərin layiqli davamçısı olan əsl liderə - İlham Əliyevə etibar etdi. Böyük mütəşəkkilliklə keçən seçkilər müstəqillik epoxasının məntiqli və möhtəşəm davamı olmaqla, yeni tarixi mərhələnin mühüm start nöqtəsi oldu.

Bütün bunlar bir daha təsdiq edir ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yüksək peşəkarlıq və ardıcıl uğurlarla davam etdirilən, Azərbaycanı sürətli inkişaf yoluna çıxarmaqla dünyanın ən qüdrətli dövlətləri sırasında özünəməxsus yerini müəyyən edən ümummilli lider Heydər Əliyev siyasətinin Azərbaycanda alternativi yoxdur. Buna görə də qədirbilən və müdrik Azərbaycan xalqı firavan gələcəyin təminatı olan bu siyasətə əbədi olaraq sadiq qalacaqdır.

**Rasim KAZIMOV,**
**Azərbaycan Respublikası Hərbi prokurorunun müavini, ədliyyə general-mayoru.**



# Yeni dövlətçilik modelini formalaşdırmış lider

**Azərbaycan xalqı bir neçə əsr milli dövlət qurmaq uğrunda davamlı mübarizə aparsa da, yalnız ötən əsrin sonlarında uzunmüddətli istiqlal mübarizəsinin məntiqi yekunu olaraq bu arzusuna qovuşmuşdur. Xalqımızın qəlbində on illər boyu silinməz iz salmış, onu mübarizə ruhunda kökləmiş milli dövlətçilik idealının gerçəkliyə qovuşması isə, ilk növbədə, milli lider amili ilə bağlıdır. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan ümummilli lider Heydər Əliyev xarizmatik rəhbər kimi xalqı can atdığı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür.**

Minilliklərin sınağından çıxmış təcrübə göstərir ki, yüksək dövlətçilik və idarəçilik təfəkkürünə malik lideri olmayan xalqlar nəinki müstəqil dövlət yarada bilməmiş, hətta dünya səhnəsindən tamamilə silinmək təhlükəsi ilə üzləşmişlər. Böyük siyasi lider daim öz cəsarəti, çevik qərarları, ən çətin şəraitlərdə optimal çıxış yolu tapmaq məharəti ilə seçilən parlaq şəxsiyyətdir. Ulu öndər Heydər Əliyev də məhz bu keyfiyyəti ilə xalqın arzusunda olduğu milli dövlət modelini formalaşdırmış, onun daimiliyini, əbədiliyini təmin etməklə ümummilli lider zirvəsinə yüksəlmişdir.

1991-ci il oktyabrın 18-də istiqlaliyyətini bərpa etmək şansı qazanmış Azərbaycanın ilkin mərhələdə üzləşdiyi ağır və mürəkkəb proseslər təsdiqlədi ki, müstəqilliyi yalnız qətiyyətli liderlərin, xalqına bağlı rəhbərlərin yüksək idarəçilik səriştəsi sayəsində qoruyub saxlamaq olar. Bu mənada, 1993-cü ilin iyun ayınadək xalqımız demokratik, hüquqi və iqtisadi cəhətdən inkişaf edən dövlətdə yaşamaq arzusunu tam gerçəkləşdirə bilməmişdi. Həmin zaman kəsiyində ölkə iqtisadiyyatında tənəzzül prosesi dərinləşir, inflyasiyanın səviyyəsi gündən-günə yüksəlir, əhalinin sosial rifah halı pisləşirdi.

Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidilə Naxçıvandan Bakıya qayıtması və Ali Məclisin sədri seçilməsi onun, sadəcə, hakimiyyətə qayıdışı deyil, eyni zamanda, xalqın xaosdan qurtulması və davamlı inkişaf yoluna qədəm qoymasıdır. Böyük strateq məhz bu mərhələdən müstəqilliyi BMT tərəfindən hüquqi baxımdan tanınmış Azərbaycan dövlətçiliyini faktiki olaraq qurmağa, onun milli dövlətçilik atributlarını formalaşdırmağa başladı və bütün səylərini səfərbər edərək Azərbaycanın dövlət müstəqilliyini, sadəcə, şərti müstəqillik aktı və bəyanatlar səviyyəsindən çıxarmağa nail oldu. Müstəqilliyin bir çoxlarının düşündüyündən də uzun və çətin yol olduğunu yaxşı bilən ulu öndər Azərbaycanı taleyin hökmünə buraxılmış dövlət düşüncəsindən uzaqlaşdırdı. Ali Sovetin sədri seçildikdən sonra ulu öndər ona göstərilən etimadı əməli işlə doğrultmağa çalışacağını vurğulayırdı: "Sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını vəhdət tutaraq əlimdən gələni edəcəyəm". Heydər Əliyevin lider kimi gücü və qüdrəti həm də onun zamanında elan etdiyi məqsəd və vəzifələrin real həyatda praktik tətbiq imkanları ilə ölçülür. Bu mənada, ümummilli lider müstəqil Azərbaycanı davamlı və sabit inkişaf yoluna çıxaran mütərəqqi iqtisadi modelin banisi kimi də ehtiramla xatırlanır. Bu iqtisadi inkişaf modeli irəli sürülərkən heç də mövcud dünya ölkələrinin təcrübəsi Azərbaycana köçürülməmiş, respublikanın zəngin təbii resursları, Şərqlə Qərbi qovuşduran əlverişli coğrafi-siyasi mövqeyi, geniş tranzit-kommunikasiya imkanları, habelə tarixi təsərrüfatçılıq ənənələri, spesifik xüsusiyyətləri nəzərə alınmışdır.

Böyük strateq Heydər Əliyevin siyasi uzaqgörənliyinin və qətiyyət nümayişinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin ideyadan reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına yeni təkan vermişdir. Bu sazişin imzalanmasının milli inkişafdakı misilsiz əhəmiyyəti bugünkü intensiv sosial-iqtisadi inkişaf fonunda daha qabarıq görünür. Bu müqavilə XX əsrdə dünyada miqyasca ən böyük enerji layihəsinin həyata keçirilməsini təmin etməklə yanaşı, respublikamızın ciddi elmi əsaslara söykənən sosial-iqtisadi inkişaf strategiyasının gerçəkləşməsinə imkan yaratmış, dayanıqlı siyasi sabitliyə, iqtisadi və milli təhlükəsizlik maraqlarının beynəlxalq səviyyədə təminatına real zəmin formalaşdırmışdır.

Ötən əsrin 90-cı illərinin əvvəllərindəki iqtisadi tənəzzül insanların həyat səviyyəsinin ümumiləşmiş göstəricisinin aşağı düşməsinə səbəb olmuşdu. Lakin Azərbaycan iqtisadiyyatının dirçəlməsi sahəsində görülmüş ardıcıl işlər sayəsində 1995-ci ildən əhalinin gəlirləri də tədricən artmağa başlamış, habelə əhalinin rifahının yaxşılaşdırılması sahəsində ardıcıl proqramlar yerinə yetirilmişdir.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı böyük müdrikliklə nəzərə alan ümummilli ilder Heydər Əliyev milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı. Bunun nəticəsidir ki, 1995-2003-ci illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı yaradılmışdır. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilmişdir.

1997-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000-ci illər) Dövlət Proqramı" əhəmiyyətinə, aktuallığına və miqyasına görə milli sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı oldu, bu sahədə dövlət siyasətinin başlıca prinsiplərini müəyyənləşdirdi. Dövlət Proqramında ilk dəfə olaraq milli sahibkarlığın stimullaşdırılması və onun dövlət maliyyə təminatı mexanizmlərinin formalaşdırılması, daxili bazarın qorunması yolu ilə istehsal sahibkarlığının inkişaf etdirilməsi, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin artırılması ilə bağlı kompleks tədbirlər planı öz əksini tapmışdır.

Ümummilli lider Heydər Əliyevin 17 avqust 2002-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (2002-2005-ci illər) Dövlət Proqramı" özəl sektorun inkişafını stimullaşdıran tədbirlərin davamı kimi mühüm əhəmiyyət kəsb etmiş, dövrün bir sıra reallıqları ilə şərtlənmişdir. Eyni zamanda, sahibkarlığa dövlət maliyyə dəstəyinin hüquqi əsaslarının formalaşdırılması üçün ulu öndər Heydər Əliyevin 27 avqust 2002-ci il tarixli fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondunun Əsasnaməsi təsdiqlənmiş, strukturu formalaşdırılmışdır. Fondun vəzifəsi ölkədə sahibkarlığın inkişafına maliyyə dəstəyi vermək, onlara müvəkkil banklar vasitəsilə güzəştli kreditlərin verilməsini təmin etmək, bir sözlə, iş adamlarının səmərəli biznes layihələrinin reallaşmasına yardımçı olmaqdır.

Ümummilli lider Heydər Əliyevin 10 sentyabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət qayğısı haqqında" və 28 sentyabr 2002-ci il tarixli "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" fərmanlarında dövlət qurumları ilə sahibkarlıq subyektləri arasında münasibətlərdə kompleks islahatlar aparılmışdır. Bütün bu tədbirlərin nəticəsi kimi 1996-2003-cü illərdə Azərbaycanın bütün həyati əhəmiyyətli sahələrində dinamik inkişaf və tərəqqi təmin edilmiş, milli sahibkarlar ordusu formalaşmışdır. Dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması məsələsinə də xüsusi diqqət yetirən Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Prezidenti yanında Sahibkarlar Şurasının yaradılması özəl sektora dəstək istiqamətində mühüm addımlardan biri olmuşdur. Şuranın əsas məqsədi Azərbaycanda sahibkarlığın inkişafına nail olmaq, sahibkarların dövlət başçısının yürütdüyü siyasətin həyata keçirilməsində səmərəli, fəal iştirakını istiqamətləndirmək, bu yolda mövcud olan problemləri araşdırmaq və onların həlli üçün təkliflər verməkdir.

Ümumilikdə, ulu öndərin rəhbərliyi altında həyata keçirilən islahatlar ölkədə yeni iqtisadi sistemə uğurlu keçidi təmin etməklə yanaşı, davamlı tərəqqini də təmin etmişdir.

Heydər Əliyevdən sonra onun siyasi kursunu uğurla davam etdirən dövlət başçısı İlham Əliyev son illərdə milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirmiş, ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir. Uğurla gerçəkləşdirilən sosial-iqtisadi islahatların - davamlı və tarazlı inkişafı stimullaşdıran dövlət proqramlarının, ictimai həyatın bütün sahələrini əhatə edən fərman və sərəncamların nəticəsi olaraq respublikamız son illərdə dünyanın sürətli inkişaf yolunda olan, qlobal maliyyə-iqtisadi böhrandan uğurla çıxan dövlətlərindən biri kimi tanınır.

Keçid dövrünü başa vuran respublikanın iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu mərhələdə əsas məqsədlərdən biri də milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Son illərdə ölkə başçısının imzaladığı fərmanlarda, təsdiq etdiyi dövlət proqramlarında bu hədəfin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilmişdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanmasında məqsəd də respublika iqtisadiyyatındakı pozitiv meyilləri daha da sürətləndirmək və mövcud potensialı davamlı inkişaf naminə tam səfərbər etməkdir. Bu məqsədlərə nail olmaq üçün rəqabətqabiliyyətli, ixracyönümlü, çoxşaxəli, innovativ iqtisadiyyatın formalaşdırılması, sənayeləşmə siyasətinin sürətləndirilməsi, mütərəqqi təcrübəyə əsaslanan sənaye zonalarının yaradılması, müəssisələrin texnoloji cəhətdən yeniləşdirilməsi, intensiv metodların tətbiqinin daha da genişləndirilməsi və digər tədbirlər nəzərdə tutulur.

Tam əminliklə deyə bilərik ki, bu gün 95 illiyini qeyd etdiyimiz ulu öndər Heydər Əliyevin sayəsində xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edilib dinamik islahatlar yoluna çıxarılan Azərbaycan hazırda regionun ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən dövlətinə çevrilmişdir. Respublikamız qlobal böhranın təsirlərinin hələ də qabarıq duyulduğu bir şəraitdə sürətli sosial-iqtisadi inkişafını qoruyub saxlayır, böyük infrastruktur layihələri, regional proqramlar həyata keçirir, Avropanın enerji təhlükəsizliyində sözünü deyir. Cəmiyyətin bütün sahələrində özünü göstərən dirçəliş, intibah meyilləri sosial-mədəni sferada da özünü qabarıq büruzə verir. Ən başlıcası, bu gün Azərbaycan cəmiyyətinin bütövlüyü təmin olunmuş, insanlarda uğurlu gələcəyə nikbin baxış formalaşmışdır.

**Mahir MUSAYEV,**
**"Caspian Catering Service" MMC-nin direktoru.**

# BÜTÜN ZAMANLARIN LİDERİ

**Axirət dünyası haqda gənclik illərində bir anda olsa fikirləşib, götür-qoy etməyən insan, yalnız 50-60 ildən sonra bu dünyanın fani olduğunu, əbədi olmadığını fkirləşir və Haqqa daha çox yaxın olmağa çalışır. Haqqın, ədalətin mövcudluğuna inanaraq, görürük ki, Allah hər 100 ildən bir, hər hansı bir xalqı-milləti idarə etmək, ona doğru yol göstərmək üçün bir dahi şəxsiyyət xəlq edir. Bu xəlq olunan bəşər övladı, xalqı doğru-düzgün, ağrısız-acısız, enişsiz-yoxuşsuz yolla aparmaq qabiliyyətinə malik olur.**

Bəli, uzun illər xarici işğalçıların talanlarına, fitnə-fəsadlarına məruz qalmış xalqımıza XX əsrdə tale özü Heydər Əliyevi xalqın aparıcı qüvvəsi, yol göstərəni kimi xəlq etdi və göndərdi. Şərəfli ömrünün bütün hissəsini, daim Haqdan ilham alan bu dahi insanı qədirbilən xalqımız unutmur, öz qəlbində yaşadır. Bu anım günlərində əlimə qələm alıb dahi insan haqqında bir neçə söz yazmaq istədim. Lakin özüm-özümə sual etdim. Yaxşı dostum, bir an əl saxla, yaxşı fikirləş. O dahi insan haqqında sənin söz deməyə mənəvi haqqın varmı? Bu arada kitab rəfində, Heydər Əliyev haqqında yazılmış kitabları bir-bir vərəqlədim. "Fikirlərin vəhdəti" kitabı daha çox nəzərimi cəlb etdi. Kitabı vərəqlədikcə, dünyanın dahi şəxsiyyətlərinin Heydər Əliyev haqda dedikləri çox qiymətli kəlamları oxuyandan sonra söz tapa bilmədim. Lakin fikrimin bu yerində bir tarixi rəvayət yadıma düşdü. "Bir gün kasıb bir insanın evi yanır. Ağac başında oturan qara qarğa bu mənzərəyə baxıb ləzzət alır. Lakin xeyirxah müjdəçisi olan Qaranquş dimdiyində yanğını söndürmək üçün su gətirir. Bu vaxt qarğa deyir: - "A yazıq, onunla sən o yanğına heç bir yardım edə bilməzsən". Bəli, bu gün bütün bunları bir daha yada salmaqla bir fikrimi diqqətə çatdırmaq istədim. Mən uzun illər ideoloji sahədə əmək fəaliyyəti göstərmişəm. Heydər Əliyevin xalq, vətən üçün gördüyü işləri sadalamaqla qurtarmaq mümkün deyildir. Heydər Əliyevin yenidən hakimiyyətə gəlişini Qurtuluş Günü kimi qeyd etməkdə xalqımız heç də yanılmadı. Bu çox təbii bir görünüş idi. Onun hakimiyyətə gəlişi çox dar bir çərçivədə qalan xalqı fəlakətdən qurtardı. Bu dahi insanı dan ulduzuna bənzətsəydik, yanılmazdıq. Bir vaxtlar ata-babalarımız dan sökülən də o ulduzu özlərinin kompası, yol göstərəni hesab edər, lazımi yollarına, məkanlarına gedərlərmiş. Bu parlaq dan ulduzu bizim azadlıq yollarımıza əbədi işıq saçdı. Kaş mən də V.Şekspir, L.Tolstoy, Hote, C.Cabbarlı kimi qüdrətli bir qələm sahibi olaydım, bu dahi şəxsiyyət haqqında bir əsər yaza biləydim. Çox təəssüf ki, bu belə deyil.

Ölkəmiz 90-cı illərin əvvəllərində çox ağır günlər keçirirdi. Vətən torpağı parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya durmuşdu. Azğın insanlar ölkədə bir neçə kiçik respublika yaratmaq xülyası ilə yaşayırdılar. Daxili çəkişmələr, ermənilərin ərazimizə təcavüzü, bir tərəfdən də hakimiyyətsizlik başsız qalan xalqı uçuruma aparırdı. Nicat yolu axtaran xalq ümidini yalnız Heydər Əliyevin hakimiyyətə gəlişində görürdü. Xalq bu çətin anlarda onun hakimiyyətə gəlişini tələb etdi, arzuladı. O, dəhşətli anlarda qeyrətli Vətən oğlu, Qafqaz qartalı heç nədən, heç kimdən çəkinmədən xalqın istək və arzusuna əməl etdi. O vaxtlar dövlət kürsüsündə, Milli Məclisdə fəaliyyət göstərən ilanların, əjdahaların, əqrəblərin tüğyan etdiyi dar ayaqda xalqın köməyinə gəldi. Tanrıya min şükürlər ki, qara qüvvələr öz istək və məqsədlərinə nail ola bilmədilər. Bütün sınaqlardan, dəhşətli fitnə-fəsadlardan, qurğulardan çox böyük məharətlə çıxan bu şahin baxışlı, Qafqaz qartalı xalqı gözləyən bəlalardan xilas etdi.

Heydər Əliyevin Azərbaycan xalqı üçün göstərdiyi misilsiz xidmətlərindən biri də, onun xalqımıza özündən sonra qoyub getdiyi İlham Əliyev kimi dövlət başçısıdır. Daim Heydər Əliyev dünyasından ruhi qida olan, onun ideyalarını həyata keçirən, gecə-gündüz fədakarcasına çalışan İlham Əliyev son 10-15 il ərzində ölkəmizi bütün dünyada tanıtdırdı. Buna bənzər onlarca faktorları nəzərə alan, xalq onu yenidən Prezident seçdi. Mən də bir yaşlı nəsil nümayəndəsi və uzun illər mətbuat sahəsində çalışan bir insan kimi, onun apardığı siyasəti dəstəkləyirəm. Mənim kimi on minlərlə insanlar 11 aprel-seçki günü öz istək və arzularına əməl etdilər. Bu gün Azərbaycanın əldə etdiyi uğurlara görə Haqqa dualar oxuyuram. Qoy Uca Tanrı o insana daim yardımçı olsun. Xalqımızı müasir dünyanın bu təlatümlü, tufanlı, boranlı hadisələrindən qorusun.

**Mayis YANARDAĞ.**

# "Ramiz Mehdiyev. Biblioqrafiya" kitabının təqdimatı olub



**Mayın 3-də Mədəniyyət Nazirliyi və Milli Kitabxana tərəfindən Azərbaycan, rus və ingilis dillərində çap olunmuş "Ramiz Mehdiyev. Biblioqrafiya" kitabının və eyniadlı elektron məlumat bazasının təqdimatı keçirilib.**

AZƏRTAC xəbər verir ki, yenidən tərtib edilmiş bu fundamental biblioqrafiyaya Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin son 10 ildə Azərbaycan, rus, ingilis, türk və digər xarici dillərdə nəşr edilmiş kitabları, elmi konqres, sessiya, konfrans materiallarında və dövri mətbuatda dərc edilmiş elmi-publisistik məqaləri, çıxışları və müsahibələri haqqında biblioqrafik məlumatlar daxil edilib.

Tədbirdə Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından çap olunmuş kitabın böyük əhəmiyyət daşıdığını söyləyib. Bildirib ki, bu, təkcə bir kitab haqqında tədbir deyil, bütövlükdə kitablar haqqında tədbir olduğu üçün ikiqat məna kəsb edir. "Nəşrdə akademik Ramiz Mehdiyevin görkəmli elm və dövlət xadimi kimi bütöv obrazı öz əksini tapıb. Kitab təkcə Ramiz müəllimin əsərlərinin adının çəkildiyi məcmuə deyil, eyni zamanda, analitik bir tədqiqat işidir, akademikin çoxşaxəli və dərin mahiyyətə malik yaradıcılığına baxışdır. Onun Azərbaycan fəlsəfə tarixinə, cəmiyyətşünaslığına zaman-zaman verdiyi töhfələri araşdıran, qruplaşdıran bir tədqiqatdır. Burada akademikin əsərləri ilə yanaşı, həm də onun haqqında və əsərləri barədə yazılanlar da öz əksini tapıb. Bu vəsait faktiki olaraq bir salnamədir, bir dövrün salnaməsidir. Azərbaycanın müstəqilliyə keçid dövrünün həm mənəvi, həm mədəni, həm də ictimai salnaməsidir. Bir şəxsin timsalında biz bu keçidin ən müxtəlif təzahür formalarını görürük. Biz bütün bunlarla tanış olduqdan sonra Ramiz Mehdiyevin gördüyü işlərə təəccüblənməyə bilmirik. Həqiqətən də, titanik bir zəhmət nəticəsində Ramiz müəllim əsl elm fədaisi, dövlət qulluğunda çalışan şəxsiyyət kimi çox böyük və möhtəşəm uğurlara imza atıb. Ulu Öndərin Azərbaycan üçün müəyyənləşdirdiyi yolun sadiq və layiqli davamçısı olan Ramiz Mehdiyev bu gün də Prezident İlham Əliyevin silahdaşı kimi quruculuq işləri ilə məşğuldur", - deyə Kamal Abdulla vurğulayıb.

"Ramiz Mehdiyev. Biblioqrafiya" kitabının ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirən K.Abdulla deyib ki, bu kitab ali məktəblərdə, akademiyanın institutlarında öyrəniləcək və tədqiq olunacaq.

Tədbirdə çıxış edən Milli Kitabxananın direktoru, professor Kərim Tahirov deyib ki, Ramiz Mehdiyev haqqında ilk biblioqrafiya Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanası və M.F.Axundzadə adına Milli Kitabxana tərəfindən Azərbaycan, rus və ingilis dillərində tərtib edilmişdi. Azərbaycan Milli Kitabxanası tərəfindən yenidən nəşr olunan bu fundamental elmi biblioqrafiya daha da təkmilləşdirilib və buraya son on ilin materialları əlavə olunub.

Bildirilib ki, filosof alimin geniş ictimai-siyasi fəaliyyətini işıqlandırmaq məqsədilə biblioqrafik göstəricidə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin "Görkəmli dövlət xadimi və cəmiyyətşünas alim" adlı "Ön söz"ü verilib. "Azərbaycanın dövlət, elm və mədəniyyət xadimləri Ramiz Mehdiyev haqqında" bölməsinə akademiklərdən Akif Əlizadə, Mahmud Kərimov, Arif Mehdiyev, Asəf Nadirov, Bəkir Nəbiyev, Ağamusa Axundov və digər görkəmli alim və ictimai-siyasi xadimlərin fikirləri, mülahizələri daxil edilib. "Əsərlərin biblioqrafiyası" bölməsində akademik Ramiz Mehdiyevin kitabları, elmi məqalələri əhatə olunub, bəzi informasiya xarakterli materiallar da yer alır.

Görkəmli alimin əsərləri və haqqında olan materiallar "Həyatı və elmi-ictimai fəaliyyətinin əsas tarixləri", "Redaktoru, elmi məsləhətçisi və buraxılışına məsul olduğu nəşrlər" və "Həyatı, ictimai-siyasi fəaliyyəti, əsərləri haqqında" adlı bölmələrdə verilib. Biblioqrafik vəsaitdə ilk dəfə olaraq dünyanın 30-dək milli kitabxanasından akademikin əsərləri barədə məlumatlar toplanılıb. Biblioqrafiyaya daxil edilmiş materiallar xronoloji ardıcıllıqla verilib və əlifba sırası ilə qruplaşdırılıb.

Sonra tədbir iştirakçılarına Ramiz Mehdiyev haqqında hazırlanmış elektron məlumat bazası təqdim edilib.

AMEA-nın vitse-prezidenti, akademik, kitabın "Ön söz" müəllifi İsa Həbibbəyli çıxışında Ramiz Mehdiyevi görkəmli alim və dövlət xadimi kimi xarakterizə edib. Ramiz Mehdiyevin dövlətçilik tariximizdə gördüyü işlərdən



danışan akademik onun əsərlərinin sanballı, elmimiz və milli-mənəvi dəyərlərimiz üçün mühüm əhəmiyyət kəsb etdiyini söyləyib.

"Milli Kitabxana çoxillik təcrübəsi əsasında akademik Ramiz Mehdiyevə həsr edilmiş ümumiləşmiş ciddi və sanballı bir biblioqrafiya hazırlayıb. Bu kitabda Ramiz müəllimin çoxillik elmi, ictimai-siyasi fəaliyyəti küll halında ümumiləşmiş şəkildə təqdim olunur. İlk dəfədir ki, Ramiz müəllimin fəaliyyəti haqqında bu qədər əhatəli, xronoloji şəkildə hazırlanmış nəşrlə tanış oluruq. Burada akademikin çoxsaylı əsərləri, təhlilləri və monoqrafiyaları göstərilir. Onun elmi fəaliyyəti və əsərlərinin sistematikası bu kitabın fonunda Ramiz Mehdiyev haqqında söz deməyə əsas verir. Ramiz Mehdiyev ulu öndər Heydər Əliyev məktəbinin yetişdirib formalaşdırdığı görkəmli dövlət xadimidir. O, demək olar ki, həyatının böyük hissəsini ümummilli lider Heydər Əliyevin silahdaşı kimi dövlətçiliyimizin möhkəmlənməsinə sərf edib. Bu gün də akademik Ramiz Mehdiyev Prezident İlham Əliyevin rəhbərliyi ilə gündən-günə inkişaf edən ölkəmizə, dövlətçiliyimizə xidmət göstərməkdədir. O, eyni zamanda, mükəmməl bir akademik düşüncəyə malik olan görkəmli elm xadimidir. Belə bir görkəmli alimə verilən ən böyük dəyərlərdən biri də ona həsr edilmiş biblioqrafiyanın nəşri və elektron məlumat bazasının hazırlanmasıdır. Bu işdə əməyi olan hər kəsə təşəkkür edirəm", - deyə İ.Həbibbəyli söyləyib.

Ramiz Mehdiyevə həsr edilmiş biblioqrafiyanın onun elmi fəaliyyətinə verilmiş ən yüksək dəyər olduğunu deyən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov alimin elmi və dövlətçilik fəaliyyətindən danışıb.

Qeyd edilib ki, qlobal miqyasda tanınan Ramiz Mehdiyevin əsərlərinə bu gün dünyanın bir çox ali təhsil ocaqlarında istinad edilir. Bütün bunlar göstərir ki, o, Azərbaycanın görkəmli ictimai-siyasi xadimi olmaqla yanaşı, həm də dünya miqyasında tanınan şəxsiyyətdir. Ulu öndər Heydər Əliyevin idarəçilik məktəbini keçmiş akademik idarəçilik, dövlət quruculuğu, vətəndaş cəmiyyəti və milli ideyanın formalaşması sahəsində unikal əsərlər müəllifi kimi tanınır: "Təqdimatına toplaşdığımız bu biblioqrafiyada alimin əsərləri, yaradıcılığı haqqında məlumat verilir. Onun əsərləri, eyni zamanda, dövlət idarəçiliyi üçün kadrların yetişməsi istiqamətində böyük elmi mənbədir. Ramiz Mehdiyev həm filosof alim, həm də ictimai-siyasi xadim kimi böyük nüfuza malikdir. Onun əsərləri bu gün də, sabah da araşdırmaçılar üçün tədqiqat obyektidir. Milli Kitabxana tərəfindən belə bir layihənin gerçəkləşməsi olduqca təqdirəlayiqdir".

Milli Məclisin deputatları - AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva, Bakı Dövlət Universitetinin kafedra müdiri Bəxtiyar Əliyev və yazıçı-publisist Elmira Axundova, habelə AMEA-nın Fəlsəfə İnstitutunun direktoru, professor İlham Məmmədzadə, Prezident Kitabxanasının direktoru, Əməkdar Mədəniyyət İşçisi Mayıl Əhmədov çıxış edərək akademikin dövlətçilik tariximizdəki xidmətlərindən, elmi fəaliyyətindən söz açıblar. Natiqlər Ramiz Mehdiyev haqqında belə bir biblioqrafiyanın hazırlanması və elektron məlumat bazasının təqdim edilməsini yüksək qiymətləndiriblər.

Sonda kitabla bağlı müzakirələrə yekun vuran Kamal Abdulla təhsil müəssisələrində və elm ocaqlarında da Ramiz Mehdiyevin yaradıcılığına həsr edilən "dəyirmi masa"ların keçirilməsinin vacibliyini vurğulayıb.

**AZƏRTAC**

# Bakı Dövlət Universitetində kimyanın aktual problemləri ilə bağlı müzakirələr aparılıb





**Bakı Dövlət Universitetində (BDU) ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş doktorant, magistr və gənc tədqiqatçıların "Kimyanın aktual problemləri" mövzusunda XİI Beynəlxalq elmi konfransı keçirilir.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan, Türkiyə, Rusiya, Almaniya, Ukrayna, Gürcüstan və digər ölkələrdən olan alim və mütəxəssislərin qatıldıqları konfransda BDU-nun rektoru, akademik Abel Məhərrəmov ümummilli lider Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq rolundan danışıb. Dahi rəhbər Heydər Əliyevin elmə, təhsilə daim xüsusi önəm verdiyini vurğulayan rektor Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib.

Müasir dünyada elmin, təhsilin mühüm rolunu qeyd edən akademik A.Məhərrəmov BDU-da bu sahənin inkişafı üçün həyata keçirilən tədbirlər, qazanılan uğurlar barədə məlumat verib.

Rektor, eyni zamanda, ölkəmizdə kimya elminin inkişaf etdiyini, universitetin kimya fakültəsində uğurlu elmi-tədqiqatlar aparıldığını, yüksək indeksli jurnallarda dərc olunan elmi məqalələrin sayının daha da artdığını, fakültənin 2017-ci ildə əldə etdiyi nailiyyətlərə görə "İlin fakültəsi" adını qazandığını söyləyib.

Kimya fakültəsinin dekanı, professor Abdulsəyid Əzizov Azərbaycan Patent və Əmtəə Nişanları Mərkəzinin keçirdiyi "İxtiraçılıq sahəsində nailiyyətlərə görə V Respublika müsabiqəsi"ndə qalib olan patentlər və mükafata layiq görülən alimlər barədə məlumat verib.

Müsabiqədə uğur qazanan alimlərə və doktorantlara mükafatlar təqdim edilib.

Tədbirdə BDU-nun üzvi kimya kafedrasının dosenti Arif İsmiyevin və rusiyalı alim Yekaterina Dobroxotovanın məruzələri dinlənilib.

Konfrans işini bölmə iclasları ilə davam etdirib.

Mayın 4-də başa çatacaq konfransa ümumilikdə 200-dən çox tezis təqdim olunub.

**AZƏRTAC**

# Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində olub



**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev mayın 3-də Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Mansel və Assosiasiyanın baş katibi, Paris Azərbaycan Evinin rəhbəri Mirvari Fətəliyeva ilə görüşüb.**

Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, sədr Azərbaycan həqiqətlərinin Fransada yayılmasında Paris Azərbaycan Evinin xidmətlərindən danışıb. O, nüfuzlu dövlət olan Fransanın ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi səylərini artırmalı olduğunu vurğulayıb, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı doğma torpaqlarından didərgin salınmış qaçqın və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində görülən işlər barədə məlumat verib. Bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev hər zaman qaçqın və məcburi köçkünlərin problemlərini diqqətdə saxlayır, bu problemlərin həlli istiqamətində lazımi addımlar atılır.

Rövşən Rzayev Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransa-Azərbaycan əlaqələrinin inkişafında müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, Mehriban xanım Əliyeva ictimai-siyasi, xeyriyyəçilik fəaliyyəti ilə yanaşı, həm də qaçqın və məcburi köçkünlərin problemlərini hər zaman diqqət mərkəzində saxlayır. Azərbaycanın Birinci vitse-prezidenti qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görür.

Komitə sədri Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə qayıdan soydaşlarımızın yaşayış şəraiti ilə tanış olmaları üçün həmin kəndə səfərin təşkilinin mümkünlüyünü bildirib.

Jan-Fransua Mansel Azərbaycan həqiqətlərinin Fransa ictimaiyyətinə obyektiv şəkildə çatdırılmasında əlindən gələni əsirgəməyəcəyini bildirib.

Qonaq gələcək əməkdaşlıqla bağlı bir sıra təkliflər irəli sürüb və bunun üçün perspektivlər olduğunu bildirib.

**AZƏRTAC**

# Dövlət Miqrasiya Xidməti ilə Beynəlxalq Miqrasiya Təşkilatı arasında əməkdaşlığın perspektivləri müzakirə edilib



**Dövlət Miqrasiya Xidmətinin (DMX) inzibati binasında Xidmət rəisi Vüsal Hüseynov Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serhan Aktoprak ilə görüşüb.**

DMX-dən AZƏRTAC-a bildiriblər ki, görüşün məqsədi DMX ilə BMqT arasında əməkdaşlığın perspektivlərinin müzakirəsi olub.

Əvvəlcə Serhan Aktoprak Vüsal Hüseynovu yeni təyinatı münasibətilə təbrik edib və ona uğurlar arzulayıb.

Vüsal Hüseynov qonağa təşəkkürünü bildirərək Azərbaycanın qapısı olan Xidmətin qarşısında duran vəzifələrin icrası istiqamətində müəyyənləşdirilmiş strategiyaya uyğun olaraq planlaşdırılan və tərəfdaş beynəlxalq qurum olan BMqT ilə münasibətlərin daha da dərinləşdirilməsinin zərurətinə toxunub. V.Hüseynov Xidmətin fəaliyyətinin bütün istiqamətlərinin ən mütərəqqi beynəlxalq təcrübəyə uyğun olaraq təkmilləşdirilməsi, şəffaflığın tam təmin edilməsi ilə bağlı konkret əməli addımların atılacağını açıqlayıb. O, humanist və nizamlı miqrasiyanın miqrantlar, habelə cəmiyyət üçün faydalılığından söhbət açıb.

Söhbət zamanı respublikamızın miqrasiya sahəsində çətinliklərlə üzləşmək ehtimalının əvvəlcədən müəyyənləşdirilərək qarşısının alınmasının vacibliyi vurğulanıb. Bildirilib ki, miqrasiya qanunvericiliyində bu sahə üzrə məsələlər tam şəkildə əksini tapıb.

Görüşdə "Dövlət Miqrasiya Xidməti ilə Beynəlxalq Miqrasiya Təşkilatı arasında Azərbaycandan miqrantların könüllü qayıdışına yardım üzrə pilot layihənin həyata keçirilməsinə dair Əməkdaşlıq Sazişi"nin icrası ilə bağlı məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

Xidmət rəisi Dövlət Miqrasiya Xidmətinin və Beynəlxalq Miqrasiya Təşkilatının ümumi maraq kəsb edən məsələlər üzrə müsbət və konstruktiv əlaqələrindən danışıb.

Qeyd edib ki, hazırda, təşkilatla əməkdaşlıq şəraitində dörd beynəlxalq layihə həyata keçirilməkdədir. Bunlar "Azərbaycanda miqrasiya və sərhəd idarəçiliyi üzrə potensialların gücləndirilməsi", "Azərbaycanda insan alverinə qarşı mübarizə üzrə potensialların gücləndirilməsi", "Azərbaycanda potensialların artırılması və texniki dəstək vasitəsilə insan alverinə qarşı mübarizənin səmərəliliyi üçün əməkdaşlığın gücləndirilməsi - VI faza" və "Azərbaycandan miqrantların könüllü qayıdışına yardım üzrə pilot layihə"sidir.

BMqT-nin ölkəmizdəki nümayəndəliyinin rəhbəri Serhan Aktoprak Azərbaycanın müvafiq dövlət qurumları, xüsusən DMX ilə səmərəli əməkdaşlıqdan təmsil etdiyi təşkilatın məmnunluğunu ifadə edib. Bildirib ki, Azərbaycanda miqrasiya sahəsi üzrə məşğul olan dövlət qurumları çox diqqətli və proqressiv iş görür.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# GƏNCƏ DÖVLƏT UNİVERSİTETİNDƏ

Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibovun sədrliyi ilə ali təhsildə keyfiyyətin yaradılmasına, idarə edilməsinə və proqnozlaşdırılmasına, eləcə də keyfiyyətin qorunub saxlanmasında vacib amillərdən olan universitetdə əmək şəraitinin və daxili intizamın təşkilinə həsr olunan iclas keçirilmişdir. İclasda prorektorlar, fakültə dekanları, kafedra və şöbə müdirləri, həmçinin tədrisin keyfiyyətinə nəzarət və universitetdaxili nizam-intizamın təşkilinə məsul komissiyaların üzvləri iştirak edirdilər. Universitetin rektoru, professor Yusif Yusibov tədbirdə qeyd etdi ki, hər bir ölkənin tərəqqisi, ilk növbədə həmin ölkədə elmin və təhsilin uğurlu inkişafından birmənalı asılıdır, təhsil cəmiyyət və xalq üçün çox böyük əhəmiyyət kəsb etdir. Türk dünyasının fenomeni, ümummilli lideri Heydər Əliyevin çox qiymətli kəlamı ilə desək: "Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Təhsilsiz xalq müasir şəraitdə öz imkanlarını həyatına sərf etmək üçün çox problemlərlə rastlaşar". Məhz bu baxımdan, təhsilin inkişafı istənilən cəmiyyətdə ictimai-siyasi, sosial-iqtisadi sabitliyin təmin edilməsində və geniş mənada uğurlar əldə olunmasında mühüm rol oynayır.



İclasda ayrı-ayrı komissiya üzvlərinin məruzə və təklifləri dinlənildi.

* * *

Fransanın Azərbaycandakı səfirliyinin nəzdində fəaliyyət göstərən Fransız İnstitutunun direktoru Moris Rufin Gəncə Dövlət Universitetinin qonağı olub. Fransalı həmkarı ilə görüşən Gəncə Dövlət Universitetinin (GDU) rektoru, professor Yusif Yusibov rəhbərlik etdiyi ali təhsil müəssisəsi ilə Fransız İnstitutu arasındakı gələcək qarşılıqlı əməkdaşlığın imkanlarını müzakirə edib. Moris Rufin bildirib ki, Azərbaycan Fransız İnstitutu dünyada Fransız institutları şəbəkəsinə qoşulmuş mədəniyyət mərkəzidir. Bakıda yaşayan frankofonların görüş yeri, fransız mədəniyyəti və dilinə maraq göstərən hər kəsi birləşdirən məkandır.

Professor Yusif Yusibov qonağa Gəncə Dövlət Universitetinin keçdiyi şərəfli inkişaf yolu, müasir vəziyyəti, eləcə də beynəlxalq əlaqələri və reallaşdırılan bir sıra layihələr haqqında geniş məlumat verib. Bildirilib ki, universitetdə xarici dillər fakültəsi və fransız dili kafedrası da fəaliyyət göstərir. Ali təhsil müəssisəsinin əməkdaşlıq etdiyi ali məktəblər içərisində Fransanın qabaqcıl universitetləri də var.



* * *

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində olan Elektron Hökumət Təlim-Tədris Mərkəzinin təşkilatçılığı ilə Gəncə Dövlət Universitetində təhsil alan gənclərin İKT sahəsindəki biliklərinin inkişafı məqsədilə seminar təşkil olunmuşdur.

Seminarda ümumilikdə 200 nəfərdən çox tələbə və müəllim heyəti iştirak edirdi. Tədbirlərdə çıxış edən mərkəzin direktoru Rauf Cabarov regionlarda təhsil alan tələbələrin İT sahəsi üzrə inkişafının perspektivlərindən danışıb, dövrümüz üçün bu sahənin onların gələcək karyeralarındakı önəmini vurğuladı. Seminarda mərkəzin əməkdaşları tərəfindən elektron hökumət həlləri, İKT üzrə təlim imkanları, beynəlxalq sertifikasiya proqramları, tələbələr üçün karyera imkanları və sosial layihələr barədə təqdimatlar nümayiş etdirildi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Görkəmli alim Heydər Hüseynov ölkəmizdə elmin, təhsilin inkişafına böyük töhfələr verib

**Bakı Dövlət Universitetində (BDU) görkəmli alim, elm təşkilatçısı Heydər Hüseynovun anadan olmasının 110 illiyinə həsr edilən "Heydər Hüseynovun elmi-nəzəri irsi və müasir fəlsəfənin aktual problemləri" mövzusunda respublika elmi-praktik konfransı keçirilib.**

AZƏRTAC xəbər verir ki, konfransda BDU-nun rektoru, akademik Abel Məhərrəmov görkəmli alim H.Hüseynovun mənalı ömür yolundan, elmi irsinin əhəmiyyətindən danışıb. H.Hüseynovun ölkəmizdə elmin, təhsilin inkişafına əvəzsiz töhfələr verdiyini diqqətə çatdıran rektor onun ali məktəblərdə, o cümlədən universitetdə (BDU) və elm müəssisələrində məsul vəzifələrdə çalışdığını, Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti olduğunu bildirib. Qeyd edilib ki, elmin, təhsilin inkişafına mühüm töhfələr verən görkəmli alim 250-dən çox dəyərli əsərin müəllifidir.



H.Hüseynovun fəaliyyəti ilə bağlı film nümayiş etdirilib.

Tədbirdə BDU-nun sosial elmlər və psixologiya fakültəsinin dekanı, professor Hikmət Əlizadənin "Heydər Hüseynovun həyatı və yaradıcılığı" mövzusunda məruzəsi dinlənilib. Məruzəçi sosial elmlər və psixologiya fakültəsində vaxtilə fəlsəfə kafedrasına rəhbərlik etmiş alimin adına auditoriya və adlı təqaüdün təsis olunduğunu xatırladıb.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Bəxtiyar Əliyev, professorlar İzzət Rüstəmov, Əziz Məmmədov və digər çıxış edənlər də görkəmli alim Heydər Hüseynovun ictimai və humanitar elmlərin, xüsusilə fəlsəfə elminin inkişafındakı müstəsna rolundan bəhs ediblər.

Sonra "Heydər Hüseynovun həyat və yaradıcılığı", "Azərbaycanda sosial həyatın fəlsəfədə inikası", "Müasir fəlsəfənin inkişaf xüsusiyyətləri", "Fəlsəfə və humanitar elmlər", "Azərbaycanda elm" mövzusunda bölmə iclasları keçirilib.

AZƏRTAC

# UNEC-in inkişaf strategiyasının əsasını Ulu Öndərin tövsiyələri təşkil edir

**Dünən Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan "Heydər Əliyev və Azərbaycan ali iqtisad təhsili" mövzusunda respublika elmi-praktiki konfransı keçirilib.**



UNEC-in İctimaiyyətlə Əlaqələr Şöbəsinin məlumatında bildirilir ki, öncə konfrans iştirakçıları ulu öndərin büstünü ziyarət edərək, önünə gül dəstəsi düzüb, ümummilli liderin əziz xatirəsini ehtiramla yad ediblər. UNEC-in tələbələrinin əl işlərindən ibarət rəsm sərgisi ilə tanış olublar.

Dövlət himni səsləndirildikdən sonra **UNEC-in rektoru, professor Ədalət Muradov** qara qızılın insan kapitalına çevrilməsi istiqamətində qəbul edilən dövlət proqramları və strategiya sayəsində təhsilin bütün pillələrində ciddi nailiyyətlər əldə edildiyini bildirib. UNEC-in Cənubi Qafqazın ən böyük iqtisadyönümlü universiteti olduğunu diqqətə çatdıran rektor, UNEC-in inkişaf strategiyasının əsasında ulu öndərin tövsiyələrinin dayandığını diqqətə çatdırıb.

UNEC-in Şimali Amerika və Qərbi Avropanın tanınmış universitetləri ilə bir sırada dayanmağı qarşısına məqsəd qoyduğunu bildirən rektor, 20 minə yaxın tələbə kontingenti olan bu ali təhsil ocağının orta müddətdə həmin rəqəmi 35 minə çatdırmaq istiqamətində görülən işlərdən bəhs edib. "Bu, həm də qarşımızda keyfiyyətli təhsilin təmin edilməsi vəzifəsini qoyur", - deyən rektor ali iqtisadi təhsil bazarında ədalətsiz rəqabət riski olduğunu diqqətə çatdırıb. O bu rəqabəti təmin etmək üçün ali təhsil müəssisələrinə tədris standartlarının hazırlanmasında müstəqillik verilməsinin qaçılmaz olduğunu bildirib.

Ə.Muradov QS reytinqinə görə İnkişaf Etməkdə olan Avropa və Mərkəzi Asiya universitetləri arasında sırf iqtisadyönümlü 4-cü universitet olan UNEC-in birinciliyi əldə etməyə iddialı olduğunu bildirərək, eləcə də dünyanın min ən yaxşı iqtisad universitetləri sırasına daxil olmağı qarşısına məqsəd qoyduğunu vurğulayıb: "İnanıram ki, bu vəzifələrin öhdəsindən gələcəyik və UNEC-in məzunları təkcə peşəkar mütəxəssis kimi yox, həm də vətənini, xalqını sevən vətəndaş kimi fəqrlənəcəklər və bu UNEC modeli olacaq".

**Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə** Ə.Muradovun səsləndirdiyi təklifləri dəstəklədiyini bildirərək, ali iqtisad təhsilinin keyfiyyətinin artırılmasının Azərbaycan iqtisadiyyatının inkişafında ciddi rol oynayacağını qeyd edib.

Regionların inkişafında yeni mərhələdən bəhs edən **AMEA-nın müxbir üzvü, akademik Əli Nuriyev** bu sahədə əldə olunan nailiyyət və perspektivlərdən danışıb. O, milli iqtisadiyyatın inkişaf göstəricilərinin təmin olunmasında regionların inkişafı ilə bağlı həyata keçirilən xüsusi dövlət proqramlarına diqqət çəkərək, regional siyasətdə ali təhsilli iqtisadçı kadr hazırlığının əsas faktorlardan olduğunu vurğulayıb.

**UNEC-in Tədris və təlim texnologiyaları üzrə prorektoru, professor Damət Bağırov** "Heydər Əliyev: Azərbaycan ali iqtisad təhsilinin dünəni, bugünü və sabahı" mövzusunda məruzə ilə çıxış edib, ümummilli liderin Azərbaycanın ali iqtisad təhsilinin qarşısına qoyduğu vəzifələrdən danışıb.

Konfrans işini bölmələrdə davam etdirib. Alim və gənc tədqiqatçılar ali təhsil sistemində innovasiya və sahibkarlıq fəaliyyəti, beynəlxalq təcrübə və meyillər, tədrisin keyfiyyəti və əhatəliliyi problemləri mövzuları ətrafında maraqlı çıxışlar ediblər.

Sonda iştirakçılara sertifikatlar təqdim edilib.

Ülvi QARAYEV,
"Respublika".

# Bölgə üçün əhəmiyyətli infrastruktur layihəsi

**"Avtomobil yollarının tikintisi üzrə infrastruktur layihələri arasında önəmli yer tutan sahədir. Bu həm iqtisadi, həm sosial sahədir. Rahat, hamar yollar insanlara rahatlıq gətirir. Eyni zamanda yol olmadan bölgələr inkişaf edə bilməz, nə turizm, nə də sənaye istehsalı inkişaf edə bilər, kənd təsərrüfatının inkişafı üçün də problemlər yaranar. Hazırda kənd yollarının tikintisi geniş vüsət alıb. Biz görürük ki, harada yeni yol çəkilir, o bölgədə canlanma daha da sürətlə gedir, kənd təsərrüfatı istehsalı artır. Nəyə görə? Çünki, bazarlara rahat çıxış olur. Beləliklə, yol infrastrukturu, sadəcə olaraq sosial layihə deyil. Son 14 il ərzində 12 min 300 kilometr yol çəkilmişdir. Bu il bu rəqəm təxminən 15 min kilometrə çatacaq. Son 14 il ərzində 443 körpü tikilmişdir. Beləliklə, ölkə iqtisadiyyatının, regionların inkişafı üçün əsas infrastruktur layihələri icra edildi".**



Ölkədə ən önəmli layihələrdən biri olan yol infrastrukturunun daha da inkişaf etdirilməsinə göstərilən dövlət qayğısı nəticəsində Şəki rayonunda xüsusi əhəmiyyət daşıyan, uzunluğu 50,9 kilometr yolun tikintisinə başlanılmışdır. Bu yolun tikintisi **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 12 saylı Şəki Yol İstismar Məhdud Məsuliyyətli Cəmiyyətə** həvalə olunmuşdur. Tikintisi sürətlə davam edən yolun inşası barədə məlumat verən **Cəmiyyətin sədri, təcrübəli yol mühəndisi Yunis İsmayılov** qeyd etdi ki, layihə dəyəri 25 milyon 800 min manat olan Çayqaraqoyunlu-Turan-Cəyirli-Qozlubulaq-Sarıca-Qayabaşı-Bolludərə-Qaratorpaq avtomobil yolunun yenidən qurulması bölgədə həyata keçirilən ən böyük infrastruktur layihələrindən biridir. Bu yolun 21 kilometri respublika əhəmiyyətli R56 Kərimli avtomobil yoluna düşür. Məhz buna görə də yolun bu hissəsi 2 hərəkət zolaqlı olmaqla 3-cü texniki dərəcəyə uyğun olaraq yenidən qurulacaqdır. Yolun hərəkət hissəsinin eni 7 metr, çiyinlərin eni 2,5 metr olmaqla ümumi eni 12 metr təşkil edəcəkdir.

"12 saylı Yol İstismar" MMC-nin sədri daha sonra vurğuladı ki, başlanğıcını M5 Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun 17-ci kilometrindən götürən Kərimli avtomobil yolu R9 Qaraməryəm-İsmayıllı-Şəki-Oğuz avtomobil yoluna birləşməklə, bölgələri birləşdirmək baxımından xüsusi önəm daşıyır. Sözügedən avtomobil yolunun qalan 29,9 kilometri isə 2 hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun olaraq yenidən qurulmaqdadır. Burada yolun hərəkət hissəsi 7 metr, Çiyinlər 2 metr, ümumilikdə yolun eni 11 metrdir.

Hazırda layihəyə əsasən yol boyu yararsız qruntun qazılaraq çıxarılması, yeni yol yatağının inşası işləri davam etdirilməkdədir. Bundan sonra yol əsasının tikintisi və asfaltlanma işləri həyata keçiriləcəkdir. Nəzərdə tutulmuşdur ki, mayın əvvəllərində 21 kilometrlik Kərimli, may ayının ortalarında isə 18 kilometrlik Bolludərə-Qaratorpaq avtomobil yolunda 1-ci qat asfalt örtüyünün vurulması həyata keçirilsin. Həmçinin, may ayının sonlarında Çayqaraqoyunlu-Çəyirli-Qozlubulaq-Sarıca-Qayabaşı avtomobil yolunda torpaq işlərinin görülməsi üçün karxana materiallarının daşınması işləri həyata keçirilməkdədir. Həmçinin, Kərimli və Bolludərə-Qaratorpaq yolu boyunca suötürücü boruların tikintisi 42 nöqtədə başa çatdırılıbdır. Bu işlərlə paralel olaraq Bucaq, Muxas və Başdaşagil avtomobil yolunun da təmirinə başlanılmışdır. Layihə üzrə 17,5 kilometr olan bu yolun hazırda 12 kilometrliyində torpaqbərkitmə işləri həyata keçirilir. Bu işlərin görülməsi üçün 7 ədəd yükünü özüboşaldan "Ford" markalı maşın, 2 ekskavator, 1 buldozer, 1 ədəd verdənə və 1 ədəd avtoqreyder cəlb olunmuşdur.

Ölkə başçısının tapşırığına əsasən həyata keçirilən, bölgədə ən önəmli infrastruktur layihələrindən sayılan Çayqaraqoyunlu-Turan-Cəyirli-Qozlubulaq-Sarıca-Qayabaşı-Bolludərə-Qaratorpaq avtomobil yolunun tikintisi ilə 8 yaşayış məntəqəsində olan 11 min əhalinin gediş-gəlişi rahatlaşacaq, yük, sərnişin daşınması asanlaşacaq.

İlham PƏHANOV,
"Respublika".

# Suraxanı rayonunda insanlar tibbi müayinəyə böyük həvəslə gəlirlər

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, ölkənin hər yerində olduğu kimi Suraxanı rayonunda da əhalinin ümumi profilaktik müayinələrə cəlb olunması işi mütəşəkkilliklə davam edir. Aksiya rayon ərazisində fəaliyyət göstərən 4 xəstəxana, 4 poliklinika və 1 ambulatoriyada həyata keçirilir.

Bu günə qədər rayon üzrə 139 min 200 nəfər və 121 təşkilatın kollektivi tibbi müayinədən keçib. Onlardan 3077 nəfərində müxtəlif xəstəliklər aşkarlanıb, 101 nəfər stasionar müalicəyə cəlb edilib, 236 nəfər təkrar müayinə və müalicə olunmaq üçün paytaxtın müxtəlif xəstəxanalarına göndərilib.

Rayonda tibbi müayinənin aparıldığı səhiyyə ocaqlarından biri də 24 saylı şəhər poliklinikasıdır. Poliklinikanın baş həkimi Hacağa Bağırov bildirdi ki, poliklinika müayinələrin aparılması üçün tam hazır vəziyyətə gətirilmişdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin tapşırığına əsasən vətəndaşların pulsuz tibbi müayinədən keçirilməsi əhalinin sağlamlığının qorunmasına, xəstəliklərin vaxtında aşkarlanmasına xidmət edir. Poliklinika 19150 nəfər böyük əhaliyə və 6138 uşağa xidmət edir. Tibbi müayinədən keçmək üçün gələn əhali ümumi və biokimyəvi, rentgen, kardioqram, ultrasəs və digər



müayinələrdən keçirlər. 1 may 2018-ci il tarixədək 17511 nəfər böyük əhalinin 64 nəfəri rentgen, 237 nəfəri USM aparatından, 495 nəfəri laboratoriya və 196 nəfəri EKQ müayinəsindən keçib. Müayinədən keçən əhalinin 329 nəfərində müxtəlif xəstəliklər aşkar olunub və 14 nəfər Bakı şəhərinin digər xəstəxanalarına müayinə üçün göndərilib. Xəstəlik aşkar edilən vətəndaşların müalicəsi istiqamətində işlər görülür. Eyni zamanda poliklinikada işləyən həkimlərdən ibarət səyyar briqadalar yaradılmışdır. Bu briqadalar məktəblərdə, uşaq bağçalarında və poliklinikaya gələ bilməyən vətəndaşların evlərində tibbi xidmət göstərirlər.

Bülbülə qəsəbəsində yaşayan vətəndaş Məmmədova Gülü 24 saylı şəhər poliklinikasının tibbi heyətindən, burada yaradılan şəraitdən razılığını bildirərək vurğuladı ki, bu aksiya bir daha sübut edir ki, dövlətimizin başçısı hər bir Azərbaycan vətəndaşını sağlam, gümrah görmək istəyir.

Həmin qəsəbə sakini Həsənov Malik də bildirdi ki, cənab Prezidentin bu təşəbbüsü qəsəbə sakinləri tərəfindən böyük razılıqla qarşılanır və insanlar tibbi müayinəyə böyük həvəslə gəlirlər. Bu qayğıya görə cənab İlham Əliyevə minnətdarlığımızı bildiririk.

Mehparə ƏLİYEVA,
"Respublika".

# "Azərişıq" ASC Qərb regionunda yenidənqurma işləri aparır

## *Yeni yarımstansiyalar tikilir, hava xətləri çəkilir*

"Azərişıq" ASC ölkənin regionlarında apardığı tikinti, yenidənqurma, bərpa işləri Qərb regionunda da davam etdirir, istismar müddətini başa vurmuş elektrik şəbəkələri yenidən qurulur. Texniki itkilərin səviyyəsinin minimuma endirilməsi, kənd təsərrüfatı, sənaye, turizm və digər iaşə obyektlərinin, o cümlədən əhalinin keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi üçün 2018-ci ilin birinci rübündə Qərb regionunda bir sıra yenidənqurma işləri həyata keçirilib və hazırda davam etdirilir.

Belə ki, Gəncə şəhərində yeni salınmış 35/10 kV-luq "Məhsəti" yarımstansiyası tikilərək istifadəyə verilib. Yarımstansiyanı elektrik enerjisi ilə təchiz etmək məqsədilə 110/10 kV-luq "Yeni-Gəncə" yarımstansiyasından iki dövrəli 3,1 km uzunluğunda 35 kV-luq yeraltı kabel xətti çəkilib. Sözügedən qəsəbədə yeni 10 kV-luq hava xətti çəkilib və 5 ədəd komplekt transformator məntəqəsi şəbəkəyə qoşulub. Bundan başqa 35/6 kV-luq "Vağzalyanı-1" yarımstansiyası yenidən qurularaq istifadəyə verilib. Hazırda Gəncə şəhərindəki 110/10 kV-luq "Mərkəz" yarımstansiyası yenidən qurulur. Eyni zamanda şəhərdəki yeni yaşayış massivlərinin, sənaye obyektlərinin elektrik enerjisi ilə təchiz edilməsi üçün yeni komplekt transformator məntəqələri quraşdırılır, hava xətləri çəkilir.

Göygöl rayonunda texniki itkilərin minimuma endirilməsi, dayanıqlı elektrik enerjisi təchizatının təmin edilməsi istiqamətində aparılan işlər çərçivəsində Nadel, Almədətli, Xaqani, Quşqara, Balçılı kəndlərində 10 kV-luq şəbəkə yenidən qurulub. Rayonun Əzgilli, Pənahlılar və Üçtəpə kəndlərində 0,4 kV-luq hava xətləri - ÖİN (Özünüdaşıyan İzolyasiyalı Naqillər) xətləri ilə əvəzlənib və hazırda yenidənqurma işləri davam edir.



Ümumilikdə, 2018-ci ilin birinci rübündə Samux rayonunun Çobanabdallı, Şəmkir rayonunun Təzəkənd, Günəş, Qarabağlılar, Fizuli, Dərəsən rayonunun Bayan-Nasos, Dərə-Zağalı, Gülbulaq, Şahvələdli, Əhmədli, Ağstafa rayonunun Zəlimxan, Köçəşər, Tovuz rayonunun Humanlar, Əlimərdanlı, Qazax rayonunun Xanlıqlar, Çaylı, Daşsalahlı, Gədəbəy rayonunun Yenikənd, Göyərli kəndlərində və rayon mərkəzlərində 0,4 kV-luq hava xətləri yenidən quraraq standartlara cavab verən ÖİN xətlərlə əvəz edilib, bir çox yerlərdə köhnə sayğacların əvəzinə yeni sayğaclar quraşdırılıb. Hazırda sözügedən rayonlarda 0,4 kV-luq elektrik şəbəkələrinin ÖİN kabellərlə əvəzlənməsi işləri davam etdirilir, yeni avadanlıqlar (dayaqlar, SİP kabellər, KTM-lər və s.) quraşdırılır, sayğaclar dəyişdirilir.

Qədir ASLAN,
"Respublika".

# DƏYƏRLİ TƏDQİQAT ƏSƏRİ

AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Səbuhi İbrahimovun bu günlərdə işıq üzü görən "Nemətullah Naxçıvani: XV əsrin görkəmli təsəvvüf və təfsir alimi" monoqrafiyası Naxçıvanda "Əcəmi" nəşriyyatında çapdan çıxmışdır.

Qeyd edək ki, f.ü.f.d. Səbuhi İbrahimov Naxçıvanın zəngin tarixi keçmişinə aid qədim əlyazma mətnlərini öyrənib tədqiq edən, onların fəlsəfi mahiyyətini, eyni zamanda, mətnşünaslıq elminin bölgə üçün əhəmiyyətli tərəflərini araşdıran, bununla bağlı monoqrafiya, kitab və məqalələr hazırlayıb geniş ictimaiyyətə çatdıran alim-filosoflarımızdandır. Müəllif haqlı olaraq göstərir ki, Naxçıvan əlyazma mətnlərinin araşdırılması milli-mənəvi, dini-əxlaqi, tarixi, ədəbi, fəlsəfi və regional baxımdan geniş bir sahəni əhatə ediyi üçün çox böyük əhəmiyyət kəsb edir. O, AMEA-nın Naxçıvan Bölməsinin Əlyazmalar Fondunda, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və Türkiyənin bir sıra kitabxanalarında mühafizə olunan türkdilli, ərəbdilli və farsdilli əlyazmalara geniş şəkildə müraciət etmişdir. Tədqiqata cəlb edilən yi Naxçıvana dair əlyazmalarda, nadir sənət nümunələrində, qədim kitab və məktublarda, o cümlədən XV əsrin görkəmli təsəvvüf və təfsir alimi Baba Nemətullah Naxçıvaninin fəlsəfi irsinin öyrənilməsində beş min illik şəhər mədəniyyəti tarixi olan qədim Nuh torpağının tarixi həqiqətlərini ortaya çıxarmışdır.

Tədqiqatçı alimin Azərbaycanın təsəvvüf və təfsir alimləri arasında xüsusi yeri olan Baba Nemətullah Naxçıvaninin fəlsəfi görüşlərinə dair bəzi məqamların araşdırılması və təhlil edilməsi baxımından apardığı tədqiqat istiqamətləri çox əhəmiyyətlidir. Nəşrdə Azərbaycan fəlsəfi tarixinin dərin kökləri, zəngin xüsusiyyətləri təhlil edilir və nəticədə Naxçıvanda yetişən fəlsəfi məzmunlu məktəblərin nümayəndəsi olan Baba Nemətullah Naxçıvaninin həyat və yaradıcılığı ilə yanaşı, elmi fəaliyyəti, təsəvvüfə bağlı dərin düşüncələri, alimin qələmə aldığı fəlsəfi məzmunlu müxtəlif əsərlərindən bəhs olunur.

Yazılı qaynaqlara görə, dini və humanitar elmlərdə, xüsusilə də təfsir sahəsində mükəmməl əsər olan "Vəhdəti-vücud" ərəb və fars dillərini çox yaxşı bilən bir alimin böyük kəşfidir. Aşkar olunan mühüm cəhətlərdən biri də ondan ibarətdir ki, o, eyni zamanda kəlamçı və filosofları tənqid edə biləcək fəlsəfi və məntiqi elmləri də yaxşı bilən bir mütəfəkkir olmuşdur.

Müəllif əsərdə tarixi qaynaqlara istinad edərək onun doğulduğu yerin qəti olaraq Naxçıvan olmasını təsdiq edir. Həyatını daha çox Naxçıvanda, sonra isə Təbriz və Ağşəhərdə keçirmişdir. Cavanlıq həyatını Naxçıvanda keçirsə də, sonra Təbrizə getmiş və orada oldu vaxtlarda işarı təfsir cəhətdən çox qiymətli olan iki cildlik tərcümə və təfsiri üzərinə götürmüş, uğurla başa çatdırmışdır. Təbrizdə bir çox elm adamları ilə qarşılaşmış, Xəlvəti şeyxi Ömər Rövşəni ilə görüşmüş, ondan səmərəli məsləhətlər almışdır. Onun məzarı Ağşəhərdədir. Adı bütün övliyaların həyatının izah edildiyi kitablarda və ensiklopediyalarda yazılmışdır.

Əsərdə bir daha vurğulanır ki, Nemətullah Naxçıvani Naxçıvanla Türkiyə arasında elm körpüsü yaratmış bir müəllifdir. Bir ayağını Mövlananın, digər ayağını Naxçıvaninin meydana qoyduğu bu körpünün nə qədər möhkəm və əhəmiyyətli olduğunu düşünmək, Naxçıvanini bu baxımdan da tədqiq etmək çox əhəmiyyətlidir. B.N.Naxçıvani, eyni zamanda, çox böyük bir mütəsəvvifdir. Azərbaycanda olan sufilərin ən görkəmlisidir. Təfsirini də bu istiqamətdə yazmışdır.

Yeni nəşrin elmi redaktoru AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, rəyçiləri isə fəlsəfə üzrə elmlər doktorları, professorlar Zəkiyyə Əbilova, Məmməd Rzayev və filologiya üzrə fəlsəfə doktoru, dosent Əzizağa Nəcəfzadədir. "Nemətullah Naxçıvani: XV əsrin görkəmli təsəvvüf və təfsir alimi" adlı əsər Naxçıvan fəlsəfi məktəblərinin yetirdikləri görkəmli filosofların tədqiqinə həsr olunan ilk sanballı monoqrafiyalardandır.

B.N.Naxçıvani möhtəşəm üslub gözəlliyinə sahib təbii alim idi. O, təsəvvüf və təfsir sahəsində xeyli əsərlər qələmə almışdır. Onun əsərlərinin böyük hissəsi günümüzə qədər gəlmiş, bir neçəsi istisna olmaqla əksəriyyəti nəşr olunmamışdır. Hazırda əsərlərinin əlyazmaları Türkiyə kitabxanalarında saxlanılır.

Gərgin elmi fəaliyyətlə məşğul olan Baba Nematullah Naxçıvaninin ən böyük əsəri Qurana həsr edilmiş təfsir kitabıdır. Təbrizdə 1496/97-ci ildə tamamladığı bu əsər "sufi qəlbinə dolan batini məna və işarətlərə görə Quranın təvil edildiyi təsəvvüfi təfsirlər" əsəridir. Bu, İslam ədəbiyyatında Quranı təsəvvüfi üsulla təfsir edən ilk əsər hesab edilir. Əsər özündən sonra bütün sufilərin və təsəvvüf alimlərinin mənbə kitabına çevrilmişdir.

Elm aləminin işıqlı çırağı hesab edilən, gözəl bir üslubla qələmə alınan əsər, eyni zamanda, "Quran"ın ilk fəlsəfi təhlili hesab edilir. Elə buna görə də müəllif öz əsərinə "Quranın kəlmə və hikmətlərini açıqlayan qeybin açarı və ilahi fəthi" adını vermişdir. Bu əsərin Baba Naxçıvaninin öz əli ilə yazdığı nüsxəsinin ikinci cildi Topqapı Sarayı III Əhməd Kitabxanasında saxlanılır.

Onun ikinci məşhur əsəri olan "Şərhi əsrarin-nöqtə" adlanır. Uzun illər bu əsərin ona aid olması haqqında şübhələr vardı. Amma əsərin onun adıyla yeni nüsxələrinin tapılması bu şübhələri ortadan qaldırdı. Əsər "vəhdəti-vücud" anlayışının şərhindən ibarətdir.

Müəllifin üçüncü böyük əsəri "Hidayətül-ixvan"dır. Bir növ təsəvvüf qardaşlığının İslami-fəlsəfəsini yaradan kitab çox qiymətli mənbə hesab edilir. Ərəbcə qələmə alınan əsər Türkiyədə tərcümə edilib, nəşr olunmuşdur.

Bu üç əsərdən başqa, onun əlavə 7 risalə də yazdığı bildirilir. Bu risalələr "Təhqiqat", "Vücudiyyə", "Məcmuai-lətaif", "Hidayə", "Nikat", "Mükaşəfə" və "Əsilə və əcibə" adlarını daşıyırlar. Bundan başqa, B.N.Naxçıvaniyə aid olduğu güman edilən bir neçə risalənin də adı mənbələrdə qeyd olunmuşdur. Bunun kimi Naxçıvaninin



İbn əl-Ərəbinin məşhur "Füsusül-hikəm" əsərinə "Haşiyə" yazdığı və Beyzavinin təfsirini yenidən şərh etdiyi haqqında məlumatlar da var.

Güman edirik ki, onun ilk təsəvvüf təfsiri yeni-yeni elmi biliklərin əldə edilməsinə köməklik edəcək. V.F.Köprülüzadə "Türk ədəbiyyatında ilk mütəsəvviflər" adlı kitabında bu əsər haqqında belə yazır: "O, təfsirində elə həqiqətlər və nüansları qeyd edib ki, insanların bir çoxunun bunu idrak etməyə elmi çatmaz".

F.ü.f.d., dosent Səbuhi İbrahimovun "Baba Nemətullah Naxçıvani: XV əsrin görkəmli təsəvvüf və təfsir alimi" monoqrafiyası Azərbaycan fəlsəfi-tarixi tədqiqatçıları üçün çox böyük əhəmiyyətə malik mənbədir. Bu əsər tələbələr, elmi işçilər və bütövlükdə geniş oxucu kütləsi üçün də dəyərlidir.

Qoşqar ƏLİYEV,
Azərbaycan Tibb Universitetinin ictimai fənlər kafedrasının müdiri, professor.

TƏKRAR

# "AZERGOLD" QSC AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1 - Geoloji kəşfiyyat sahələrində yerüstü geofiziki tədqiqatların aparılması işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "AzerGold" QSC Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H (Əlaqələndirici şəxs: Rafiq Abdullayev, Tel: 012-505-02-02, I-V günlər, saat 09.00-dan 18.00-dək) ünvanından ala bilərlər.

**İştirak haqqı: Lot 1 - 250 manat.**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Hesab:**
**AZ85PAHA38020AZNHC0190068658**
**VÖEN 1403467421**
**Bank: "PAŞA Bank" ASC**
**Kodu: 505141**
**VÖEN: 1700767721**
**M/H: AZ82NABZ01350100000000071944**
**S.W.İ.F.T: PAHAAZ22**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*
*7. Digər müvafiq sənədlər.*

Sənədlər Azərbaycan dilində təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **25 may 2018-ci il, saat 15.00-a** qədər, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) **05 iyun 2018-ci il, saat 15.00-a** qədər "AzerGold" QSC-nin Tender Komissiyasına Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı **06 iyun 2018-ci il saat 15.00-da** Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

**"AzerGold" QSC, TENDER KOMİSSİYASI.**

# Azercell-in dəstəyilə III Buktreyler Festivalının qalibləri mükafatlandırılıb

**2 may 2018-ci il tarixdə Azercell Telekom MMC-nin tərəfdaş qismində iştirak etdiyi III Buktreyler Festivalının Qala gecəsi baş tutub.**




Gecədə festivalın qalibləri elan olunub və mükafatlandırma mərasimi keçirilib. Beləliklə, birinci yerə xalq yazıçısı Anarın seçilmiş əsərlərinə çəkdiyi treylerə görə Tural Kərimov adlı müəllif layiq görülüb. İkinci yeri Firdovsi Nəbiyev "Şahid" buktreyleri və Cavid Nuriyev "İkimizin hekayəsi" işi ilə paylaşıblar. Üçüncü yerə isə Sərdar Tağıyev "Almafobiya", Binyamin Sailov "Can nənə, bir nağıl de" və Eybulla Ağadadaşov "Bulud bağçaları" treylerləri ilə layiq görülüblər.

1-ci, 2-ci (2 nəfər) və 3-cü (3 nəfər) yerin qalibləri uyğun olaraq 1000, 800 (hər biri) və 500 (hər biri) AZN olmaqla pul mükafatı qazanıblar. Müsabiqəyə təqdim olunmuş buktreylerlərə ölkəmizin tanınmış yazıçıları, kinoşünasları və ictimai xadimlərinin daxil olduğu münsiflər heyəti qiymət verib. Qeyd edək ki, mütaliənin və maariflənmənin cəmiyyətimizdə təbliği, kino sahəsində istedadlı və yaradıcı gənclərin üzə çıxarılması məqsədi daşıyan festivalda çap şəklində nəşrdən çıxmış (nəşr ilindən asılı olmayaraq) azərbaycanlı müəllifin kitabından və ya kitab seriyasından bəhs edən buktreylerlər iştirak ediblər.

Tədbirdə Azercell-in nümayəndəsi hələ 2015-ci ildə şirkət tərəfindən təqdim olunan Bookmate kitabxanasının texniki göstəricilərindən bəhs edib, bütün iştirakçılara mobil əlavədən 1 aylıq, qaliblərə isə 1 illik istifadə kodları hədiyyə edilib.

Mütaliə mədəniyyətinin inkişafı, kitaba marağın artırılması üçün indiyə qədər bir sıra uğurlu layihələrə imza Azercell Telekom bundan sonra da gənclər arasında bu istiqamətdə sosial layihələrin həyata keçirilməsinə dəstək olacaq.

**Ülvi QARAYEV,**
**"Respublika".**

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti

***Aviasiya yanacağı "AVQAZ-100LL"in, aviasiya mühərrik, transmissiya, hidravlika, sürtkü yağlarının, gəmi və xüsusi texnikalar üçün mühərrik, transmissiya, hidravlika yağlarının, generator və transformator yağlarının, xüsusi mayelərin, avtomobil yağlarının və aviasiya yanacaq laboratoriyası üçün avadanlıqların satınalınması məqsədilə***

# AÇIQ TENDER ELAN EDİR

| Tender 7 (yeddi) lot üzrə keçirilir: | | İştirak haqqı (manatla) |
|---|---|---|
| Lot 1 | Aviasiya yanacağı "AVQAZ-100LL" | 1800 |
| Lot 2 | Aviasiya mühərrik, transmissiya, hidravlika və sürtkü yağları | 280 |
| Lot 3 | Gəmi və xüsusi texnikalar üçün mühərrik, transmissiya və hidravlika yağları | 330 |
| Lot 4 | Generator və transformator yağları | 150 |
| Lot 5 | Xüsusi mayelər | 150 |
| Lot 6 | Avtomobil yağları | 250 |
| Lot 7 | Aviasiya yanacaq laboratoriyası üçün avadanlıqlar | 100 |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasından ala bilərlər.

Hesab: Dövlət Xəzinədarlığı Agentliyi
kod: 210005;
VÖEN 1401555071;
M/h: AZ41NABZ01360100000000003944;
S.W.İ.F.T BİK: CTREAZ22;
Dövlət Sərhəd Xidməti
VÖEN 1700360581;
H/h: AZ19CTRE00000000000002388501;
XHK 142319 2388501(2310) fond 3

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqə telefonu: (Tel: (012) 498-01-36)

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından və Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondundan arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

